AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 7 (1407), 12 - 18 fevral 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.




## Prezident İlham Əliyev Formula 1 Qrupunun baş icraçı direktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib.

Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri Azərbaycana növbəti səfərindən məmnunluğunu ifadə edərək bildirdi ki, Formula 1 çərçivəsində ötən il keçirilən 21 yarışın təhlili nəticəsində Bakıda keçirilən bu yarış ən yaxşı yarış hesab edilib.

Dövlətimizin başçısı Bakıda keçirilən Formula 1 yarışına yüksək qiymətin verilməsindən məmnunluğunu ifadə etdi. Ölkəmizə gələn turistlərin sayının ildən-ilə sürətlə artdığını deyən Prezident İlham Əliyev ötən il xarici turistlərin Azərbaycanda iki milyard dollardan çox vəsait xərclədiklərini qeyd etdi və bildirdi ki, yarım milyarda yaxın tamaşaçı auditoriyasına malik olan Formula 1-in Bakıda keçirilməsi ölkəmizə turist axınının təmin olunması işinə böyük töhfə verir. Dövlətimizin başçısı qeyd etdi ki, bütün bunlar, öz növbəsində, Azərbaycanda turizm sənayesinə cəlb olunmuş kiçik və orta sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradır, eyni zamanda, dünyada daha çox insan Azərbaycan haqqında məlumat alır. Beləliklə, ölkəmizdə Formula 1 yarışlarının dünyaya təqdimatı, həm də eyni zamanda, iqtisadi mənfəət baxımından böyük əhəmiyyət daşıyır.

Çeyz Keri dövlətimizin başçısının fikirləri ilə tam şərik olduğunu vurğulayaraq qeyd etdi ki, bu yarışı izləmək üçün Bakıya gələn insanlar paytaxtımızda gördüklərini yüksək qiymətləndirir və Bakını çox sevdiklərini bildirirlər. Çeyz Keri bildirdi ki, Formula 1 yarışının Azərbaycanda keçirilməsi ölkəyə potensial turistlərin cəlb olunması ilə yanaşı, eyni zamanda, Bakının dünyada daha çox tanınması işinə də öz töhfəsini verir.

Görüşdə Bakıda təşkil edilən "İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydaları" adlı 3-cü beynəlxalq konfransın əhəmiyyətinə toxunuldu, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Bakıda Formula 1 Qran-Prisi 2023-cü ilədək keçiriləcək

Formula 1 Azərbaycan Qran-Prisi 2023-cü ilədək təşkil ediləcək.

Bununla əlaqədar fevralın 5-də Bakıda müqavilə imzalanıb. Müqaviləni Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov və Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri imzalayıblar.

Bakıda ilk dəfə Formula 1 Qran-Prisi 2016-cı ildə təşkil olunub. Baxımlılığı ilə seçilən Bakı yarışı həmişə ilin ən yaxşı Qran-priləri arasında yer alır.

## "Böyük dəbilqə" turniri: 1 gümüş və 1 bürünc

Fransanın paytaxtı Parisdə keçirilən "Böyük dəbilqə" turnirində cüdo komandamız 1 gümüş və 1 bürünc medal qazanıb. 11 kişi və 6 qadın cüdoçu ilə təmsil olunan komandamızın aktivinə gümüş medalı İrina Kindzerska yazdırıb. Birinci mərhələdə kamerunlu Vanessa Mballa və rusiyalı Ksenya Çibisova üzərində qələbə qazanan cüdoçumuz yarımfinalda yaponiyalı Akira Soneni məğlub edib. Qızıl medal uğrunda yarışda kubalı İdalis Ortisə uduzub.

Bürünc medalı isə +100 kiloqram çəki dərəcəsində Uşangi Kokauri qazanıb. Tatami ustamız görüşdə İsrail təmsilçisi Ora Sasonu məğlub edib.

## Bakıya 300-ə yaxın gimnast gələcək

Batut gimnastikası və tamblinq üzrə Dünya kuboku yarışlarına sayılı günlər qalıb. Bununla bağlı Milli Gimnastika Arenasında böyük canlanma hiss olunur. Belə ki, milli komandamızın üzvləri və təlim-məşq toplanışı üçün Bakıya digər ölkələrdən gəlmiş Qazaxıstan, Özbəkistan və Bolqarıstan komandaları hazırlıq keçirlər.

Dünən MGA-da yoxlama-məşq toplanışı keçirilib və məşqdə Avstraliya, Yeni Zelandiya, İsveçrə və Gürcüstan komandaları da iştirak ediblər.

Xatırladaq ki, Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya verən Dünya kuboku yarışlarında 31 ölkənin 300-ə yaxın gimnastı mübarizə aparacaq.


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU


"Möhkəm xarakterə sahib olmayan idmançı ilk məğlubiyyətdə ruhdan düşəcək"

Səh. 5

## Olimpizm

### BELTA "Minsk 2019" rəsmi media tərəfdaşı olub

Fevralın 6-da "Minsk 2019" ikinci Avropa Oyunlarının Təşkilat Komitəsi ilə Belarus Respublikası Prezident Administrasiyasının nəşriyyat evi - "Belarus bu gün" və Belarus Teleqraf Agentliyi (BELTA) arasında rəsmi media tərəfdaşlığına dair saziş imzalanıb. Hər iki qurum müqaviləyə əsasən, ikinci Avropa Oyunların rəsmi media tərəfdaşı olub. II Avropa Oyunları 2019-cu il iyunun 21-dən 30-dək Minskdə keçiriləcək. Avropanın 50 ölkəsindən 4 mindən çox atlet idmanın 15 növü üzrə 199 dəst medal uğrunda yarışacaq. Səkkiz idman növü üzrə yarışlar "Tokio 2020"yə lisenziya xarakteri daşıyır. Xatırladaq ki, I Avropa Oyunları 2015-ci ildə Azərbaycanın paytaxtı Bakıda keçirilib. Yekun nəticələrə görə, ümumi hesabda birinci yeri Rusiya, ikinci yeri Azərbaycan, üçüncü yeri Böyük Britaniya komandası tutub.

### Beynəlxalq qurum qərar çıxarıb

Beynəlxalq Paralimpiya Komitəsi (BPK) Rusiya Paralimpiya Komitəsinin (RPK) səlahiyyətlərini şərti olaraq martın 15-dək bərpa edəcəyi barədə qərar çıxarıb.

Bu barədə qərar BPK-nin iclasında qəbul edilib. RPK beynəlxalq qurumun irəli sürdüyü 70 kriteriyadan 69-nu yerinə yetiriblər. Qalan bir kriteriya isə Riçard Maklarenin hesabatıdır. Beləliklə, rusiyalı paralimpiyaçılar Tokio-2020 Yay Olimpiya Oyunlarında və Pekin-2022 Qış Olimpiya Oyunlarında öz bayraqları altında çıxış etmək imkanı əldə edəcəklər.

Xatırladaq ki, Rusiya Paralimpiya Komitəsi beynəlxalq statusdan Rio-2016 Olimpiadası ərəfəsində kanadalı hüquqşünas, WADA-nın müstəqil komissiyasının rəhbəri Riçard Maklarenin hesabatına əsasən, məhrum edilib. Hesabatda bildirilirdi ki, 2012-2015-ci illərdə rusiyalı idmançılar 35 dəfə dopinqdən istifadə ediblər və Soçi-2014 Olimpiadasında 6 nəfərin test nümunələri dəyişdirilib.

### İAAF dəyişikliklər etməyi planlaşdırır

Beynəlxalq Yüngül Atletika Federasiyasının (İAAF) İdman Komitəsi 2023-cü ildən etibarən yarışlarda idman yerişi üzrə məsafənin azaldılmasını tövsiyə edib.

Təklif olunur ki, 20 km-lik məsafə 10 km, 50 km məsafə isə 30-km məsafə ilə əvəz edilsin. Bundan başqa, komitə Tokio-2020 Olimpiadasından etibarən kişilər və qadınlar arasında yarışların sayını da bərabərləşdirməyi məsləhət görüb. Beynəlxalq qurum Tokio-2020 Olimpiadasından sonra 50 km məsafəyə idman yerişini iri həcmli beynəlxalq yarışların proqramına daxil etməməyi düşünür. Ediləcək dəyişikliklərdən biri də idmançıların qiymətləndirilməsi ilə bağlı yeni sistemin tətbiqi olacaq.

İAAF-ın martın 10-11-də keçiriləcək iclasında komitənin təklifləri müzakirə ediləcək. Təkliflər qəbul olunacağı təqdirdə 2021-ci ilin yanvarın 1-dən qüvvəyə minəcək.


ƏZİZ OXUCULAR!

"Olimpiya dünyası"-na 2019-cu il üçün abunə yazılışı davam edir.

Abunə yazılışının

3 aylıq qiyməti - 6 manat (1 nüsxə)
6 aylıq qiyməti - 12 manat (1 nüsxə)
12 aylıq qiyməti - 24 manat (1 nüsxə)

Abunə yazılmaq üçün

- "Azərmətbuatyayımı" İB-ə (tel: 440 39 83)
- "Qaya" (tel: 565 67 13)
- "Səma" (tel: 596 22 97)
- "City Press" (tel: 437 28 10)
- "Kaspi" (tel: 432 39 55)

mətbuat yayımı firmalarına müraciət edə bilərsiniz

"Olimpiya dünyası" - idmanımızın aynası

## 8 yaşlı gimnastımız Polşada qızıl medala layiq görülüb



Polşanın Sosnoviç şəhərində bədii gimnastika üzrə "Beynəlxalq Sosnoviç Qış Kuboku - 2019" adlı beynəlxalq turnir keçirilib.

Yarışda Polşa ilə yanaşı, Macarıstan, Ukrayna, Çexiya, Slovakiya, Sloveniya, Portuqaliya, Bolqarıstan, İsrail və Avstriyanın 20-dən çox klubunun təmsilçisi mübarizə aparıb. Ölkəmizi beynəlxalq turnirdə 8 yaşlı gimnastımız Mina Abbasova təmsil edib.

İdmançımız 2010-cu il təvəllüdlü gimnastlar arasında keçirilən fərdi yarışlarda fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl medala layiq görülüb. Qeyd edək ki, Mina Abbasova artıq 3 ildir ki, Budapeşt şəhərində fəaliyyət göstərən beynəlxalq dərəcəli hakim Lyubov Bernat və İnga Mackusun rəhbərlik etdiyi "Rus RG Sport" klubunda peşəkar səviyyədə məşğul olur. 5 yaşından başlayaraq iştirak etdiyi bütün beynəlxalq yarışlarda valideynlərinin işi ilə bağlı müvəqqəti yaşadığı ölkəni - Macarıstanı təmsil etsə də, ötən ilin avqustundan etibarən Budapeştdə keçirilən XVII ənənəvi "Gracia" kuboku turnirindən sonra Azərbaycan bayrağı altında çıxış edir.




## Atletimiz Elit turnirdə finişi birinci keçib

Azərbaycanlı atlet Nazim Babayev Fransanın Metz şəhərində keçirilən beynəlxalq elit turnirin qalibi olub. Turnirdə N.Babayev üçtəkanla tullanma yarışında 16,67 metr nəticə ilə birinci yeri tutub. O, bu nəticə ilə fransalı atlet Mamadu Dia Çerif (16,09 metr) və belaruslu Dimitri Platinskini (15,87 metr) qabaqlayıb.

## Milli Olimpiya Komitəsində orta məktəb direktorları ilə görüş keçirilib

Milli Olimpiya Komitəsində (MOK) "Olimpiya mədəniyyəti və təhsil" proqramı çərçivəsində iştirak edəcək orta məktəblərin direktorları ilə görüş keçirilib. Görüşdə 49 məktəbin direktoru, Təhsil Nazirliyinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, MOK-un məsul şəxsləri və proqramın işçi heyəti iştirak edib. "Olimpiya mədəniyyəti və təhsil" proqramı cari ilin iyulunda Bakıda keçiriləcək Avropa Gənclərinin Olimpiya Festivalının irsi çərçivəsində həyata keçirilir. Proqramın məqsədi Avropa Olimpiya Komitəsinə üzv ölkələrin gəncləri arasında və onların vasitəsilə mədəniyyət və idmanı, həmçinin Olimpiya hərəkatını təşviq etməkdir. MOK-un marketinq şöbəsinin rəisi Mehman Kərimov, Təhsil Nazirliyinin tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdiri Vasif Məmmədov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəisi Rəşad Tağıyev proqram çərçivəsində həyata keçiriləcək işlərdən, məktəblərin rol və vəzifələrindən danışıblar. Sonra MOK-un əməkdaşı Səkinə Vəliyeva proqramın icrası üçün məxsusi yaradılmış @OCEP2019 ünvanlı sosial media platformasının təqdimatını edib. O, proqramın icrasında platformadan istifadə qaydaları barədə məlumat verib. Proqramın ekspertlər qrupunun nümayəndəsi Namiq Cəfərov məktəblərdə həyata keçiriləcək işlər və ekspertlər qrupunun bu sahədəki fəaliyyətindən danışıb. Tədbirdə ölkələrin Bakı şəhər məktəbləri arasında bölgüsünə dair püşkatma olub. Qeyd olunub ki, fevralın 21-də keçiriləcək "Olimpiya festivalına 150 gün" adlı təqdimatda ictimaiyyətə və mətbuata layihə haqqında daha geniş məlumat veriləcək.

## "Köhnə qitə" yarışında yeni uğur

Danimarkanın Aalborq şəhərində 14-15 yaşlı yeniyetmələr və 16-17 yaşlı gənclər arasında 46-cı, 21 yaşadək gənclər arasında isə 11-ci Avropa çempionatı başa çatıb. Yarışların son günü daha bir karateçimiz qızıl medal qazanıb. Son qitə çempionatlarında bir-birinin ardınca iki bürünc medal qazanan Murad Hacızadə (kumite +84 kiloqram, şəxsi məşqçisi Rafael Məmmədov, milli komanda məşqçisi Anar Allahverdiyev) 21 yaşadək gənclər arasında Avropa çempionu olub. Dörd görüşdə rəqibə xal verməyən M.Hacızadənin qələbəsi ümumi komanda sıralamasında geriləyən Azərbaycan karateçilərini 4-cü pilləyə yüksəldib. Yarışın əvvəlki günləri Roman Heydərov (21 yaşadək gənclər, kata), Əminağa Quliyev (16-17 yaşlı gənclər, - 61 kiloqram), Tale Yaqubov (14-15 yaşlı yeniyetmələr, kumite) qızıl medala, Hüseyn Məmmədli (14-15 yaşlı yeniyetmələr, kumite) isə bürünc medala sahib olub. Emil Güləhmədov (21 yaşadək gənclər, 84 kiloqram) bürünc medal uğrunda həlledici görüşdə, Osman Osmanlı isə yarımfinalda (14-15 yaşlı yeniyetmələr, + 70 kiloqram) hakimin qərəzli mövqeyinə görə mükafatsız qalıb. Daha bir idmançımız İsmayıl Məhəbbətli (14-15 yaşlı yeniyetmələr, kumite, - 70 kiloqram) təsəlliverici görüşlərə qatılsa da, üçüncülük şansını əldən verib. Mükafatlandırma mərasimində Azərbaycan Milli Karate Federasiyasının prezidenti və Avropa Karate Federasiyasının (EKF) idarə heyətinin üzvü Yaşar Bəşirov iştirak edib. EKF tərəfindən etimad göstərilən beynəlxalq hakim Cahangir Babayev qitə çempionatının final görüşlərini idarə edən xüsusi referilər qrupuna daxil edilib. 46-cı və 11-ci qitə çempionatına 51 ölkədən 1092 idmançı qatılıb. 34 ölkənin karateçiləri müxtəlif əyarlı mükafatlara, 14 ölkənin idmançıları isə qızıl medala sahib olublar.



## Parataekvondoçuların Antalya sınağı: 1 gümüş və 2 bürünc

Türkiyənin Antalya şəhərində keçirilən parataekvondo üzrə dünya çempionatına yekun vurulub. Mundialda Elimxan Manafov (75 kq) bürünc medala sahib olub. Komandanın kapitanı Nicat Müslümov (75 kq) isə gümüş medal qazanaraq yarışı ikinci pillədə başa vurub. Xatırladaq ki, yarışların ilk günündə Röyalə Fətəliyeva da bürünc medal qazanıb. Beləliklə, baş məşqçi Fərid Tağızadə və böyük məşqçi Yaşar Səfərovun yetirmələri dünya çempionatından vətənə 1 gümüş və 2 bürünc medalla qayıdıblar.

# Formula-1

## Azad Rəhimov: Formula 1 Azərbaycan Qran-Prisi yerli şirkətlər üçün yeni imkanlar açır

Azərbaycan Qran-Prisinin keçirilməsinə dair müqavilənin müddətinin uzadılmasından məmnunluğunu bildirən A.Rəhimov deyib: "Bu, bizim üçün qürurverici hadisədir. Son bir neçə il ərzində paytaxt sakinlərinin arzuları gerçəkləşdi və biz Bakıda keçirilən Formula 1 yarışlarının sadə bir ideyadan bu idmanın tarixində həyəcan və gərginliklə dolu ən maraqlı yarış həftəsonlarından birinə çevrilməsinə hamılıqla şahid olduq. Həmçinin bu yarışlarda biz Formula 1 yarışının ən maraqlı məqamlarını da müşahidə edə bildik".

Nazir vurğulayıb ki, hər il dünyanın müxtəlif ölkələrindən Bakıya daha çox avtoidman həvəskarı təşrif buyurur. Biz şadıq ki, dünya avtoidman ictimaiyyəti Azərbaycan Qran-Prisinə böyük maraq göstərir. A.Rəhimov bu uğurun qazanılmasında göstərdikləri böyük dəstəyə görə Çeyz Keri başda olmaqla Formula 1 qrupunun kollektivinə təşəkkürünü bildirib.




"Müqavilənin uzadılması nəticəsində yerli və regional biznes qurumları Formula 1-in qlobal platformasından daha çox faydalanmaq imkanına sahib olacaqlar. Digər tərəfdən, yarış həvəskarları daha çox əyləncə imkanı əldə edəcəklər. Bunun nəticəsində biz öz kommersiya gəlirlərimizi maksimum səviyyədə artıra biləcəyik. Bu fürsəti nəzərə alaraq, deyə bilərəm ki, müqavilənin uzadılması bizim üçün heç vaxt mübahisəli məsələ olmayıb. Biz böyük məmnuniyyətlə builki yarış da daxil olmaqla daha 5 Qran-Priyə ev sahibliyi etməyə hazırıq", - deyə A.Rəhimov bildirib.

Çeyz Keri Azərbaycanın Formula 1 yarışı üçün ideal məkan olduğunu bildirərək deyib: "Çox şadıq ki, bu müqaviləni yeniləməklə biz Azərbaycan Qran-Prisini daha bir neçə il ərzində Formula 1 dünya çempionatında görə biləcəyik. Bakı yarışı gərgin mübarizə və həyəcan dolu anlarla çox qısa müddətdə mövsümün ən məşhur Qran-prilərindən birinə çevrildi. Azərbaycan daim yüksək qonaqpərvərlik nümayiş etdirir. Gözoxşayan Bakıda isə mükəmməl yarış üçün möhtəşəm ab-hava hökm sürür. Bu baxımdan bütün avtoidman həvəskarlarını çox maraqlı yarışı qaçırmamaq üçün Formula 1 Azərbaycan Qran-Prisinə baxmağa dəvət edirəm".

* * *

Formula 1 Azərbaycan Qran-Prisinin ölkəmizdəki təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) təşkilatçılığı ilə fevralın 5-də "İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydaları" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransa BŞH-nin icraçı direktoru Arif Rəhimov, Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid, "Heineken İnternational" şirkətinin Formula 1 və Formula E yarışlarına sponsorluğuna dair aparıcı mütəxəssis Ben Pinkus və Formula 1 yarışlarının təşkilatçısı Emili Preyzer qatılıblar.

Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") icraçı direktoru Natəvan Məmmədova konfransda çıxış edərək bildirib ki, mötəbər beynəlxalq yarışların ölkəmizdə keçirilməsi orta və kiçik biznes də olmaqla bütün sahələrin inkişafına töhfə verir. İdman yarışmaları, eyni zamanda, turizm sektorunun inkişafına da mühüm təsir göstərir.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid təbliğat zamanı brendin uğurla seçilməsinin önəmli olduğunu deyib. Bildirib ki, Azərbaycanla bağlı sonuncu tanıtım videosu ötən ilin sonunda ictimaiyyətə təqdim edilib. Videoçarxın Londonda nümayişi çox uğurlu olub. Cari ildə isə bu təbliğatın Rusiya, Səudiyyə Ərəbistanı, Hindistan, Birləşmiş Ərəb Əmirlikləri və Almaniyada təşkili nəzərdə tutulub. Digər ölkələrdə də təbliğatın aparılması planlaşdırılır.

Formula 1 yarışının təşkilatçısı Emili Preyzer Azərbaycan Qran-Prisinin dünya çempionatının təqvimində xüsusi çəkiyə malik olduğunu deyərək diqqətə çatdırıb ki, Azərbaycanda kifayət qədər Formula 1 azarkeşi var. Bütün bunlar rəqəmsal platformalarda aparılan hesablamalar zamanı müəyyən edilir. İldən-ilə yarışı izləyənlərin sayı artır və Azərbaycan Qran-Prisi ilin ən yaxşı yürüşü adını qazanır. Bütün bunlar Azərbaycan Qran-Prisinin təşkilatçılarının yüksək peşəkarlığından xəbər verir.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin icraçı direktoru Arif Rəhimov Formula 1 yarışının Azərbaycanda keçirilməsinin daha üç il uzadılmasının müsbət hal olduğunu bildirib. O, qeyd edib ki, bu müqavilə Azərbaycanın Qran-Priyə uğurla ev sahibliyi etməsinin göstəricisidir. Azərbaycanın mötəbər beynəlxalq idman tədbirlərinin keçirilməsində böyük uğurlar əldə etdiyini vurğulayan A.Rəhimov deyib: "Biz yarışı təşkil etməyə başlayanda uğur qazanmayacağımızı bilmirdik. Formula 1 tərəfdaşlarının və hökumətin verdiyi rəy işimizin uğurlu olduğunu göstərir. Çalışacağıq ki, qarşıdakı illərdə də uğurlarımız davam etsin".

Digər çıxış edənlər də irimiqyaslı idman yarışlarının ölkə üçün əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, bu yarışlar iqtisadi inkişafa töhfə verməklə yanaşı, ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına da səbəb olur.

* * *

Bu il aprelin 26-28-də dördüncü dəfə keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi üçün yerli media nümayəndələrinin akkreditasiyasına dair sənəd qəbulu davam edir. proses fevralın 28-də saat 17:00-da başa çatacaq. Azərbaycan Qran-Prisi də daxil olmaqla, bütövlükdə 2019-cu il Formula 1 dünya çempionatında yer alan hər bir yarış üçün media nümayəndələrinin akkreditasiyası Beynəlxalq Avtomobil Federasiyası (FIA) və Formula One Management (FOM) şirkəti tərəfindən kurasiya olunur. Yerli media nümayəndələrinin yarışa qeydiyyatı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) vasitəçiliyi ilə həyata keçirilir. Qeydiyyatdan keçmək istəyən jurnalistlər BŞH-nin rəsmi veb-səhifəsinə daxil olaraq müvafiq formanı doldurmalı və tələb olunan sənədləri sistemə yüklədikdən sonra onlayn qaydada müraciət etməlidirlər. Natamam və ya vaxtından gec göndərilmiş müraciət formaları nəzərə alınmayacaq.



# Tərəflər arasında memorandum imzalanıb

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi (MPK) ilə İctimai Televiziya və Radio Yayımları Şirkəti (İTV) arasında anlaşma memorandumu imzalanıb.

Anlaşma memarandumunu MPK-nin prezidenti İlqar Rəhimov və İTV-nin baş direktoru Balakişi Qasımov imzalayıblar. Sənəddə hər iki qurum arasında qarşılıqlı əməkdaşlıq, informasiya dəstəyi, o cümlədən, keçirilən yarışların eksklüziv yayım hüququnun verilməsi ilə bağlı məsələlər yer alıb.

Tərəflər arasında razılaşmaya əsasən, bu ilin may ayında Bakıda keçiriləcək cüdo üzrə beynəlxalq qran-pri yarışlarının yayım hüququ İTV-yə verilib.

Xatırladaq ki, bu il mayın 13-14-də Bakıda paracüdo idman növü üzrə beynəlxalq Qran pri yarışları təşkil ediləcək. 43 ölkədən 250 idmançının iştirak edəcəyi bu yarış Tokio-2020 Yay Paralimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

## *Skopyedə 65 şahmatçı mübarizə aparacaq*

Martın 18-də Makedoniyanın paytaxtı Skopyedə kişi şahmatçılar arasında Avropa çempionatı keçiriləcək. Turnirdə 25 ölkədən 144 oyunçunun (65 qrossmeyster) iştirakı dəqiqləşib. Avropa çempionatında Azərbaycanı Arkadi Naydiç, Rauf Məmmədov, Qədir Hüseynov, Vasif Durarbəyli və Məhəmməd Muradlı təmsil edəcəklər. Turnir İsveçrə sistemi ilə 11 turdan ibarət olacaq.

# Bakıda fərqlənənlər Tokioya vəsiqə əldə edəcəklər

Tokioda keçiriləcək XXXII Yay Olimpiya Oyunlarına təsnifat xarakterli yarışlardan biri də "International Challenge" kateqoriyalı beynəlxalq badminton turniridir. Bu mötəbər yarışlardan birinin təşkili hüququnu Bakı qazanıb. Beynəlxalq Badminton Federasiyasının builki təqvim planına daxil olan "Azerbaijan International 2019" turniri iyunun 6-9-da Bakı İdman Sarayında keçiriləcək. Beş kateqoriya üzrə qalib və mükafatçıların müəyyənləşəcəyi nüfuzlu yarışın ümumi mükafat fondu 25 min ABŞ dollarıdır. Bu, Azərbaycanda keçiriləcək ilk böyük badminton turniridir. Doğrudur, badminton üç il əvvəl ölkəmizin təşkilatçılığı ilə reallaşan birinci Avropa Oyunlarının proqramına daxil idi. Ancaq bu, ilk böyük müstəqil turnir olacaq.



Azərbaycan təkcə idman nailiyyətləri ilə deyil, həm mötəbər yarışları yüksək səviyyədə təşkil etməsi ilə dünyada tanınır. Bu baxımdan peşəkar badmintonçuların mübarizə aparacaqları "Azerbaijan International 2019" turnirinin də yüksək səviyyədə keçiriləcəyi şübhə doğurmur.

Badmintonçularımızın son beynəlxalq turnirlərdə qalib olması bu idman növünə marağı bir qədər də artırıb. Təmsilçilərimiz Edi Reski Dviçayo və Ezmi Qovimuramadhonin Minskdə keçirilən, "International Challenge" kateqoriyalı "Belarus International 2018" turnirində həm şəxsi, həm də qoşa yarışlarda birinci olması Azərbaycan badmintonunun tarixində mühüm hadisədir. Ümumiyyətlə, son illər milli komandanın üzvləri Səbuhi Hüseynov, Cahid Əlhəsənov, Murad Bayramov mütəmadi olaraq, Beynəlxalq Badminton Federasiyasının təqvim planında yer alan müxtəlif kateqoriyalı yarışlarda iştirak edirlər. Yetişməkdə olan gənc badmintonçularımız Vaqif İsmayılov, Adəm Əliyev, Rəvan Niftəliyev, Aqil Qəbilov, Zaur İsazadə davamlı olaraq, müxtəlif beynəlxalq turnirlərə ezam edilir. Olimpiadaya lisenziya qazandıran "Azerbaijan International 2019" yarışı ölkəmizdə badmintonun daha da kütləviləşməsinə mühüm töhfə verəcək.

* * *

Beş nömrəli Bakı Peşə Liseyində Azərbaycan Badminton Federasiyası ilə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə 2007-2008-ci il təvəllüdlü badmintonçular arasında paytaxt birinciliyinə yekun vurulub. Yarışda 34 qız və 40 oğlan birincilik uğrunda mübarizə aparıb. Qaliblər 5 kateqoriya üzrə müəyyənləşib. Oğlanların şəxsi yarışında Məhəmmədəli Bayramov, qızlar arasında isə Fatimə Əşrəfova birinci olublar. Oğlanların qoşa yarışında Sərxan Bağırov - Məhəmmədəli Bayramov, qızlarda isə Fatimə Əşrəfova-Aysu Ələkbərova bütün rəqiblərinə qalib gəliblər. Qarışıq qoşa yarışlarda isə Həcər Nuriyeva - Sərxan Bağırov cütlüyü fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qaliblər hədiyyə, diplom və medallarla təltif olunublar.

Yubiley

**Fevralın 7-də yunan-Roma güləşi üzrə Azərbaycan Güləş Federasiyasının (AGF) vitse-prezidenti, təcrübəli mütəxəssis Elçin Cəfərov 60 illik yubileyini qeyd edib. AGF-nin rəhbəri Namiq Əliyev də daxil olmaqla, güləş ailəsi yubilyarı təbrik edib. Qeyd edək ki, Elçin Cəfərov 2002-2010-cu illərdə yunan-Roma güləşi üzrə yığmamıza baş məşqçilik edib. Məhz onun rəhbərliyi altında güləşin bu növündə ilk Olimpiya qızılı əldə olunub.**

**"Olimpiya dünyası" qəzeti olaraq Elçin müəllimi təbrik etməyi özümüzə borc bildik və onunla birgə ömür yoluna nəzər saldıq.**

# *Elçin Cəfərov:* "Ömrümün 50 ilini idmana həsr etmişəm"

***- Elçin müəllim, Azərbaycan güləşində kifayət qədər tanınmış və nüfuzlu simalardan birisiniz. Bunun üçün kimə və nəyə borclusunuz?***

- Ömrümün 50 ilini idmana, güləşə həsr etmişəm. 10 yaşından güləşlə məşğul oluram. İdmanda ilk addımlarımı ölkənin tanınmış tədris və təhsil ocaqlarından olan Respublika Olimpiya İdman Liseyində atmışam. Mən bura böyük qardaşım Nurəddinin məsləhəti ilə gəlmişəm. İlk müəllimim İsmayıl Çöpçiyev olub. O hazırda Balakəndə məşqçilik edir və Rəsul Çunayevin şəxsi məşqçisidir. Sonra rəhmətlik Fikrət Tahirovun rəhbərliyi altında çalışmışam. Fikrət müəllim çox tələbkar, zəhmətkeş insan idi və yetirmələrinə xüsusi diqqətlə yanaşırdı. Karyeramda, həyatda əldə etdiklərim uğurlarda bu insanın xüsusi payı var. Məşqçilərim mənə həyatda düzgün insan olmağı, vətənimi sevməyi və müdafiə etməyi, bir sözlə əsl vətəndaş kimi formalaşmağı öyrətdilər.

Düşünürəm ki, insan hansı işlə məşğul olursa olsun, o işə ürəyini, canını qoymalıdır. Əks halda nə uğur əldə edəcək, nə də nüfuz, hörmət qazana biləcək. Sənin əziyyətlə gördüyün işə bu gün qiymət verməsələr də, sabah, birisi gün mütləq verəcəklər. Mən də xoşbəxt insanam ki, dövlətimiz tərəfindən əməyim yüksək qiymətləndirilib. 2010-cu ildən AGF-də vitse-prezident vəzifəsində çalışıram. 2004-cü ildə "Şöhrət" ordeni ilə təltif olunmuşam, Əməkdar bədən tərbiyəsi və idman xadimiyəm. Ölkə rəhbərinə, Milli Olimpiya Komitəsinə, Gənclər və İdman Nazirliyinə minnətdarlığımı bildirirəm. Bundan sonra nə qədər ömrüm qalıb, var-qüvvəmi idmanımıza, güləşin inkişafına həsr edəcəyəm.

***- Baş məşqçi kimi işlədiyiniz illəri necə xatırlayırsınız?***

-Zədələr səbəbindən idman karyeramla erkən vidalaşdım və məşqçiliyə başladım. Bir müddət idman təşkilatlarında müxtəlif vəzifələrdə çalışdım. 2002-2010-cu illərdə Azərbaycan güləş yığmasında yunan-Roma üzrə baş məşqçi kimi fəaliyyət göstərdim. Baş məşqçi olduğum illərdə yetirməm Fərid Mansurov yunan-Roma növündə ilk Olimpiya qızılı qazandı. O, Afina-2004 Olimpiadasında himnimizi səsləndirdi. Digər yetirməm Rövşən Bayramov Pekin-2008 və London-2012 Olimpiadasında gümüş medala sahib oldu. Vitali Rəhimov da Pekin-2008-in gümüş mükafatçısıdır. Məşqçi işləmək çox çətin və məsuliyyətli peşədir. Çox vaxt elə olub ki, evdən, ailədən xəbərim olmayıb. Qohumların, dost-tanışların xeyir-şərində iştirak edə bilməmişəm.



***-Dünya Güləş Birliyi qaydaları tez-tez dəyişir. Buna münasibətiniz?***

-Yaxşı baxmıram. Tez-tez qayda dəyişiklikləri, xüsusi ilə də çəki ilə bağlı dəyişikliklər idmançıya mənfi təsir edir. Amma dəyişməyən bir şey var: gərgin zəhmət, peşəkarlıq, nizam-intizam. Əgər bunlar varsa, güləşçi mütləq qələbə qazanacaq.

***- Arzulayıb çata bilmədiyiniz istəyiniz?***

- Güləşə gələndə ən böyük arzum Avropa, dünya, Olimpiya çempionu olmaq idi. Mən yaşadığım dövrdə, yəni postsovet məkanında bu, çox çətin idi. Amma sevinirəm ki, idmançı kimi çata bilmədiyim arzuma məşqçi kimi nail olmuşam. Neçə-neçə Olimpiya, dünya və Avropa çempionları yetişdirmişəm.

***-Hazırda yunan-Roma güləşi üzrə komandada vəziyyət necədir?***

- Komandamız stabil heyətdən ibarətdir və iştirak etdiyi yarışlarda uğurla çıxış edir. Bu il pəhləvanlarımızı çətin və məsuliyyətli yarışlar gözləyir. Güləşçilərimiz aprel ayında Rumıniyanın Buxarest şəhərində Avropa çempionatında yarışacaqlar. Sonra Belarusun Minsk şəhərində keçiriləcək II Avropa Oyunlarında qüvvələrini sınayacaqlar. Sentyabr ayında Qazaxıstanın Alma-Ata şəhərində dünya çempionatına yollanacaqlar. Bu yarışda ilk beşliyə düşən idmançı Tokio-2020 Olimpiadasına lisenziya əldə edəcək. Məqsədimiz olimpiadaya daha çox vəsiqə qazanmaqdır.

***- Elçin Cəfərov keçdiyi ömür yoluna nəzər salanda nə görür?***

- Doğrusu, heç bilmirəm bu ömür necə keçdi. Bir də gözümü açdım ki, 60-ı haqlamışam. Həyatımdan, yaşadığım ömür payından razıyam.

***- "Olimpiya dünyası" qəzetinin kollektivi adından sizə yubiley münasibəti ilə təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.***

-Qəzetiniz hər zaman ölkədə idman və Olimpiya Hərəkatının təbliğində öz dəstəxətti ilə seçilib. İdmançılarımızın yerli və beynəlxalq səviyyəli yarışlarda əldə etdikləri uğurları vaxtında və dolğun şəkildə idman ictimaiyyətinə çatdırırsınız. Mən də bu gərgin və məsuliyyətli işinizdə bütün kollektivə uğurlar arzu edirəm.

***Səadət Hakıyeva***

# Qitə yarışı 4 ildən bir eyni ölkədə təşkil olunacaq

Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) qurumun bayrağı altında keçirilən bütün növlər üzrə dünya çempionatlarını (Olimpiya və qeyri-Olimpiya idman növləri üzrə) hər 4 ildən bir eyni ölkədə və eyni ayda təşkil etməyi planlaşdırır. Qərar yalnız yay olimpiadasından əvvəlki ildə keçiriləcək dünya çempionatlarına şamil ediləcək. Beləliklə, 2023-cü ildə təşkil olunacaq ilk birləşmiş dünya çempionatlarının ev sahibi Şotlandiyanın Qlazqo şəhəri olacaq.

Ötən ilin avqustunda Qlazqoda keçirilən və yüngül atletika, üzgüçülük, gimnastika, triatlon, qolf və avarçəkmə ilə yanaşı, velosiped idmanının da təmsil olunduğu birləşmiş Avropa çempionatlarının təhlili belə bir qərarın verilməsində həlledici rol oynayıb. Belə ki, şosse, trek, BMX və MTB (dağ velosipedi) üzrə birləşmiş qitə çempionatlarına olan tamaşaçı, teleyayım və sponsor maraqları UCI rəhbərliyini dünya çempionatları ilə bağlı tarixi qərar verməyə sövq edib.

Beynəlxalq Velosipedçilər İttifaqının bayrağı altında hər il 13 növ üzrə dünya çempionatı təşkil edilir ki, bunların da 4-ü (şosse, trek, BMX və MTB) Olimpiya növüdür. Bütün 13 növ üzrə birləşmiş dünya çempionatları ilə bağlı qərar Avropa çempionatlarına da şamil ediləcək. 2023-cü ildə ilk birləşmiş dünya çempionatlarını qəbul edəcək ölkə isə yaxın aylarda müəyyənləşəcək.

# "Təxti kuboku"na yekun vurulub

İranın Kirmanşah şəhərində sərbəst güləş üzrə "Təxti kuboku" yarışlarına yekun vurulub. Ənənəvi yarışda 10 ölkədən - İran, Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan, Macarıstan, Hollandiya, Belarus, Qırğızıstan və Gürcüstandan olan pəhləvanlar mübarizə aparıblar. İlk yarış günündə baş məşqçi Saypulla Absaidov, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında mübarizə aparan millimizin 4 üzvü - Əhmədnəbi Qvarzatilov (61 kq), Hacımurad Hacıyev (74 kq), Cəbrayıl Həsənov (79 kq) və Nurməhəmməd Hacıyev (97 kq) finala vəsiqə qazanıb. İkinci yarış günündə həlledici qarşılaşmalar keçirilib. Qvarzatilov finalda Uluqbəy Yoldaşbəyova (Qırğızıstan), Cəbrayıl Həsənov Bəhmən Teymuriyə (İran) məğlub olaraq gümüş medalla kifayətlənib. Ancaq H.Hacıyev Rza Əfzəli (İran) üzərindəki qələbəylə himnimizi Kirmanşahda səsləndirib. Mircəlal Həsənzadə (61 kq) və Şərif Şərifov (92 kq) bürünc medal qazanıblar. Beləliklə, komandamız 2019-cu ildə çıxdığı ilk turnirdə 1 qızıl, 3 gümüş və 2 bürünc medal əldə edib. Yığmamız komanda hesabında 2-ci yeri tutub. Xatırladaq ki, yarışda III dərəcəli beynəlxalq hakim Babək Allahverdiyev ədaləti qoruyub.



## *Atletlər Qış yarışında qüvvələrini sınadılar*

Respublika Olimpiya Mərkəzində keçirilən atletika üzrə 37-ci qış çempionatına yekun vurulub. Çempionatın ikinci günündə kişi və qadın atletlər 200, 800 və 3000 metr məsafələrə qaçış yarışlarında güclərini sınayıblar. Bundan başqa, kişilər üçtəkanlı, qadınlar isə uzunluğa tullanma yarışlarında mübarizə aparıblar. Nüvəitələmə yarışında isə hər iki cinsin nümayəndələri qalib adı uğrunda məharətlərini göstəriblər.



Yarışların ikinci günündə kişilər arasında üçtəkanlı tullanmada Rüstəm Məmmədov, nüvəitələmədə İsmayıl Əliyev qalib adını qazanıblar. Qadınlar arasında isə uzunluğa tullanmada Yekaterina Sarıyeva, nüvəitələmədə Günel Hüseynova birinci yerə layiq görülüblər.

Qaçış növləri üzrə kişilərin yarışında İlham İksanov (200 m), Röyal Qəyyumlu (800 m), İlham Abışov (3000 m) birinci yerdə qərarlaşıblar. Qadınların yarışında isə Zəkiyyə Həsənova (200 m), Natəvan Etibarova (800 m), Anna Yusupova (3000 m), Ayana Seyuşova (manеələrlə 60 m) birinci olublar.

Çempionat Gənclər və İdman Nazirliyinin və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

* * *

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Atletika Federasiyasının (AAF) birgə təşkilatçılığı ilə 2004-2005-ci təvəllüdlü atletlər arasında ölkə çempionatı keçirilib. Respublika Olimpiya Mərkəzində keçirilən çempionatda 8 klub və cəmiyyətin üzvləri iştirak ediblər. Yarışda oğlanlar doqquz növdə (60, 300, 600, 1000, estafet 4x200 metr, uzunluğa, üçtəkanlı və hündürlüyə və nüvəitələmə) mübarizə aparıblar. Qızlar isə səkkiz növ, o cümlədən 60, 300, 600, 1000, uzunluğa, üçtəkanlı və hündürlüyə tullanma, nüvəitələmə) üzrə güclərini sınayıblar. Qaliblər diplom və medallarla təltif olunublar.

## 60 karateçi Dan aldı

"Zirvə" beynəlxalq idman klubunun karate bölməsinin idmançılarına növbəti Dan sertifikatları təqdim edilib. Baş məşqçisi Rüstəm Əkbərov imtahanları uğurla verən uşaq və yeniyetmə karateçiləri təltif etmək üçün təlim-məşq zalına gələn Azərbaycan Milli Karate Federasiyasının (AMKF) prezidenti Yaşar Bəşirova minnətdarlığını bildirib. Kiçik yaşlı idmançıların karate ilə məşğul olması üçün yaradılan şəraitə görə "Zirvə" beynəlxalq idman klubunun prezidenti Tofiq Heydərova, həmçinin baş məşqçi R.Əkbərova təşəkkür edən Y.Bəşirov klubun yetirmələri arasında böyük qələbələr qazanacaq idmançıların yetişəcəyinə inandığını bildirib. O, R.Əkbərovun yetirmələrinin "Olimpiya ümidləri" nominasıyasında qalib olmalarını yüksək dəyərləndirib. Bildirib ki, yeni yaranmasına baxmayaraq, klubun yetirmələri qısa vaxtda respublika və beynəlxalq yarışların qalib və mükafatçıları olublar. Federasiya prezidenti növbəti Avropa çempionatında mübarizə aparacaq yığma komandanın tərkibində klubun karateçilərinin yer almasını təqdirəlayiq hal kimi qiymətləndirib. Görüşün sonunda sınaqları müvəffəqiyyətlə başa vuran 60 uşaq və yeniyetmə karateçiyə müvafiq Dan sertifikatları verilib.

## *Komandalar pilot layihədə iştirak etdilər*



Azərbaycan Stolüstü Tennis Federasiyasının (ASTF) təşkilatçılığı ilə fevralın 9-da klub və həvəskar komandalar arasında liqa çempionatı keçirilib. Liqa çempionatının birinci mərhələsində 13 komanda mübarizə aparıb. Liqa yarışları dairəvi sistem üzrə keçirilib. Qeyd edək ki, pilot layihə olan liqa çempionatı klub sisteminin inkişaf etdirilməsi məqsədilə təşkil edilib.

## ADBTİA "İdman Tibbi və Reabilitasiya" proqramı üzrə magistr qəbulu elan edib

Ölkədə fəaliyyət göstərən həkim və həkim-rezidentlər üçün Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) "İdman Tibbi və Reabilitasiya" magistr proqramı üzrə növbəti qəbula start verilib.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası ingilis dilində tədris olunan "İdman Tibbi və Reabilitasiya" magistr ixtisasına qəbul olmaq istəyən həkim və həkim-rezidentlərə 2019-2020-ci tədris illəri üçün qəbul elan edib. Magistratura imtahanlarının I-ci mərhələsində iştirak etmək istəyənlər fevral ayının 11-dək Dövlət İmtahan Mərkəzinin saytında qeydiyyatdan keçiblər.

Qəbul imtahanın ilk mərhələsində kifayət qədər bal toplayan namizədlər II-ci mərhələdə çərçivəsində ADBTİA-da müsahibədən keçəcəklər.

"İdman Tibbi və Reabilitasiya" magistr proqramı dünyaya 29 Nobel laureatı bəxş edən Böyük Britaniyanın UCL - London Kollec Universitetin - İdman Tibbi İnstitutu ilə birgə tərtib olunub.



AİBA-nın Tibbi Komissiyasının rəhbəri, Böyük Britaniyanın Kral Tibb Cəmiyyətinin İdman Tibbi bölməsinin vitse-prezidenti, Böyük Britaniyanın boks üzrə milli Olimpiya yığmasının tibbi direktoru, Dr. Maykl Pol Luzmor rəhbərlik edir.

"İdman Tibbi və Reabilitasiya" magistr proqramını bitirən məzunlar milli yığma komandalar, idman federasiyaları, idman klubları və reabilitasiya mərkəzlərində çalışmaq imkanı qazanacaqlar. Magistr proqramı üzrə ətraflı məlumat almaq istəyənlər (+99412) 564 73 88 nömrəsinə zəng edə və ya master@sport.edu.az email ünvanına yaza bilərlər.

## Yeni mövsüm üçün müraciət vərəqəsi hazırdır

Beynəlxalq Avtomobil Federasiyası (FIA) qarşıdakı mövsüm üçün müraciət vərəqəsinin yekun variantını dərc edib. Bu, kifayət qədər gec baş versə də, səbəbi izah edilib. Formula 1 komissiyası iki komandanın adının dəyişdirilməsini yalnız ötən həftə təsdiq edib. İndi iştirakçıların siyahısında təkcə "Racing Point" deyil, həm də "Alfa Romeo Racing" olacaq. Bununla yanaşı, Hinvildə işlənib hazırlanmış və tikilmiş şassi də "Alfa Romeo" adlanır. Adından müraciət verilən "Sauber Motorsport AG" isə yalnız şirkət kimi iştirak edir. Dekabrın əvvəllərində elan olunmuş variant ilə müqayisədə daha bir dəyişiklik Aleksander Elbonun 23 nömrə altında çıxış edəcəyi barədədir.



## *Alpaqut yarışı Şəmkirdə*

Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinə həsr edilmiş Alpaqut Turan döyüş sənəti üzrə açıq Şəmkir turniri başa çatıb. Yarışda ölkəmizin müxtəlif bölgələrindən ümumilikdə 19 komandanın tərkibində 241 idmançı mübarizə aparıb. Şəmkir Olimpiya İdman Kompleksində təşkil olunan turnirdə uşaqlar, yeniyetmələr, gənclər və böyüklər Alpaqut Turan döyüş sənətinin aypara, batur, caymaz, qurşaq sistemləri üzrə qüvvələrini sınayıblar. Yekun nəticələrə görə komanda hesabında aypara sistemində Sabunçu, Ağdam və Suraxanı rayonlarının komandaları ilk üçlükdə yer alıblar. Batur sistemində Şəmkir, Laçın və Ağcabədi rayonlarının idmançıları fərqləniblər. Caymazda birinci yeri "Arktika" klubunun yetirmələri tutublar. İkinci və üçüncü yerlərə Mingəçevir və Kəlbəcər komandaları layiq görülüblər. Qurşaq sistemində isə ilk yerdə Laçın rayonunun komandası qərarlaşıb. Şəmkir və Ağcabədi komandaları isə sonrakı yeri tutublar. Qaliblərə Şəmkir Rayon Gənclər və İdman İdarəsi tərəfindən kubok, diplom və medallar təqdim edilib.

## Hövsanda xatirə turniri təşkil olunub

Bu yaxınlarda Hövsan İdman Olimpiya Kompleksində Azərbaycan Kung-fu Federasiyası və "Şərur" idman klubunun birgə təşkilatçılığı ilə 20 yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş xatirə turniri keçirilib.



"Şəhidlər ölməz, vətən bölünməz" şüarı altında keçirilən yarışda 300-dən çox uşaq, gənc və böyük idmançı qüvvəsini sınayıb. Yarışda 8 müxtəlif çəki dərəcəsində qaliblər və mükafatçılar müəyyənləşib. Gənclər arasında Danyel Xoosdenko (60 kq), Fərid Qasımov (65 kq), Ruslan Hüseynov (70 kq), kişilərin mübarizəsində isə Hüseyn Rəsulzadə (56 kq), Ceyhun Xalıqlı (60 kq), Heydər Qasımov (70 kq), Əfqan Səfixanov (90 kq) və Yadigar Tofiqli (+ 90 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Yarış haqqında məlumat verən klubun direktoru Ceyhun Əliyev bildirib ki, turnirin keçirilməsində məqsəd uşaq və yeniyetmələrdə vətənpərvərlik hissinin aşılanmasından, idmanın kütləviliyinin artırılmasından ibarət olub. O, həmçinin idman ocağı klubu 2018-ci ildə yaradılıb. Klubumuz yarandığı gündən etibarən federasiyamızın prezidenti Nurlan Aslanov və vitse-prezident Tural Alişanlı bizə daim diqqət göstərir, yarışlarımızla maraqlanırlar. Hazırda klubumuzda 100-dən çox idmançı 4 məşqçi-müəllimin rəhbərliyi ilə kunqfunun sirlərinə yiyələnirlər. İnanırıq ki, gələcəkdə klubumuzdan yetirmələri



barədə danışaraq bildirib ki, klub bir ildir ki, fəaliyyət göstərir. " "Şərur" idman arasında dünya və Avropa çempionları, mükafatçıları olacaq"

## Triatlonçumuz reytinqdə 16-cıdır

Beynəlxalq Triatlon İttifaqı fevral üçün yeni reytinq cədvəlini açıqlayıb. Milli komandamızın lideri Rostislav Pevtsov mövqeyini qoruyub. Belə ki, hesabında 2999,00 xal olan triatlonçumuz 16-cı pillədə qərarlaşıb. Reytinq cədvəlinə dəfələrlə dünya çempionu olan İspaniya idmançısı Mario Mola başçılıq edir. Cənubi Afrika Respublikasının təmsilçisi Riçard Mürrey və fransız Vinsent Lyuis ilk üçlüyü qapayıblar.

## Mərhələ yarışı uğursuz başa çatıb

Serbiyanın paytaxtı Belqradda qılıncoynatmanın şpaqa növü üzrə gənclər arasında Dünya Kubokunun mərhələ yarışına yekun vurulub. Gənc şpaqaçılarımızdan Ruslan Həsənov kişilərin şəxsi yarışında qrup mərhələsində keçirdiyi altı görüşün üçündə qalib gələrək pley-offa vəsiqə qazanıb. Pley-offda Macarıstan idmançısı Nandor Zakmari üzərində qələbə qazanan şpaqaçımız 1/64 finalda italiyalı Alessandro Ciniyə məğlub olub. Qrupda keçirdiyi beş görüşdən üçünü qələbə ilə başa vuran Barat Quliyev isə pley-offda Belarus təmsilçisi İvan Baxvalaunu məğlub edib. O, 1/64 finalda fransalı Teo Kollinə uduzub. Qrup mərhələsində altı oyunun ikisində uğur qazanan Xalid Əliyev pley-offda rusiyalı Aleksandr Sobolev ilə görüşdən məğlub ayrılıb. Kənan Məlikzadə isə qrupda keçirdiyi beş görüşün hamısında məğlub olub. Gənc şpaqaçılarımız komanda yarışında onaltıdabir final mərhələsində Qazaxıstan yığmasına uduzub.



## *Redaksiyanın poçtundan*

### Astarada ölkə birinciliyinin seçmə yarışı keçirilib

Azərbaycan Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının birgə təsdiq etdiyi təqvim planına əsasən, şahmat üzrə Azərbaycan birinciliyinin seçmə yarışlarına yekun vurulub. Astara Olimpiya İdman Kompleksində keçirilən yarışlarda 8, 10, 12, 14 və 16 yaşadək oğlan və qızlar mübarizə aparıblar. Gərgin keçən yarışda ölkəmizin bütün bölgələrini təmsil edən 36 şəhər və rayonundan 260-dan çox oğlan və qız biliyini sınağa çəkib.



Yarışda Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti, şahmat üzrə beynəlxalq dərəcəli hakim Faiq Həsənov, Gənclər və İdman Nazirliyinin şahmat üzrə sektor müdiri, beynəlxalq dərəcəli hakim Lütfiyar Rüstəmov, Bakı Şahmat Mərkəzinin direktoru, şahmat üzrə beynəlxalq dərəcəli hakim Məcid Əfəndiyev, şahmat üzrə qadınlardan ibarət yığma komandanın baş məşqçisi, beynəlxalq dərəcəli hakim Fikrət Sideyifzadə iştirak ediblər. Yarışı giriş sözü ilə açan Astara rayon Gənclər və İdman İdarəsinin rəisi Ərçə Əliyev yarış iştirakçılarına uğurlar arzulayıb. Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov çıxışında Astarada mötəbər bir yarışın keçirildiyini qeyd edərək, son illər ölkəmizdə şahmatın inkişafı ilə bağlı görülən işlərdən, idmançılarımızın beynəlxalq yarışlarda qazandığı uğurlardan danışıb. Yarışların baş hakimi, beynəlxalq dərəcəli hakim, Uşaq Gənclər İdman Şahmat Məktəbinin direktoru Azər İbrahimov Şahmat üzrə Azərbaycan çempionatının seçmə yarışlarının reqlamenti barədə iştirakçılara məlumat verib.

Yarışın sonunda 8, 10 , 12, 14, 16 yaş qruplarında I, II, III yerləri tutanlar Astara Rayon Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar. Mükafatlandırma mərasimində Astara Rayon İcra Hakimiyyətinin məsul işçiləri Mərasim Hacızadə və Fikrət Talıbov iştirak ediblər.

Qeyd edək ki, astaralı 2 idmançı da respublika final mərhələsində iştirak haqqı qazanıb.

***Rufan Şirinov,***
***Astara RGİİ-nin aparıcı məsləhətçisi***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

***Yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafında idmanın mühüm rolu var. Gələcək bugünkü uşaq və gənclərin əlindədir. Hazırkı yeniyetmələrin kamil, vətənə layiqli şəxs kimi yetişməsində idmanın mühüm rolu var. İdmanla məşğul olan yeniyetmə və gənclər vətənpərvər, sağlam böyüyür, həmçinin ədalətli və dostluğa sadiq olurlar. Müşahidələr göstərir ki, idmançılar həmyaşıdlarına nisbətən daha prinsipial, əzmkar olur, məğlubiyyəti sevmir, həyatın bütün sahələrində yalnız qələbə üçün çalışırlar. Sevindirici haldır ki, bu gün ölkəmizdə idman yüksək sürətlə inkişaf edir. Paytaxt və bölgələrdə fəaliyyət göstərən yüzlərlə idman məktəbi, cəmiyyət və klublarda uşaq, yeniyetmə və gənclər müxtəlif idman növləri ilə məşğul olurlar.***



# "Möhkəm xarakterə sahib olmayan idmançı ilk məğlubiyyətdə ruhdan düşəcək"

### "Məşqçi-müəllim sadəcə idmançıya istiqamət verə bilər"

Hazırda paytaxt və bölgələrdə onlarla cüdo klubu fəaliyyət göstərir. Onlardan biri də Bakının Yasamal rayonunda yerləşən "Şahin" cüdo klubudur. Bu yaxınlarda klubun təsisçisi və baş məşqçisi Azər Bağırovla görüşdük. Klub haqqında məlumat verən Azər müəllim bildirdi ki, bu idman ocağının əsası 1998-ci ildə qoyulub. "Mən 1985-ci ildən məşqçi-müəllimliklə məşğulam. Müxtəlif idman cəmiyyətlərində, o cümlədən "Zenit", "Neftçi"cəmiyyətlərində, DİN İC-də çalışmışam. Sonradan, yəni məşqçi-müəllim kimi kifayət qədər təcrübə yığdıqdan sonra qərara gəldim ki, öz klubumu açım. Beləliklə, 1998-ci ildə "Şahin" klubunun əsasını qoydum. Əlbəttə, ilk vaxtlar müəyyən çətinliklər oldu. Amma onların hər birinin öhdəsindən gəldik. İndi klubumuzda məndən əlavə 5 müəllim 100-ə yaxın yeniyetmə və gəncə cüdo idman növünün sirlərini öyrədir. Qeyd edim ki, bu yaxınlarda klubumuzun filialını açdıq. Əlbəttə, bu da təsadüfi deyil. Bir tərəfdən cüdoya olan tələbat, ikinci tərəfdən isə bir müəllim kimi mənim qarşıya qoyduğum məqsəd "Şahin"in filialının açılmasını zəruri edirdi. Belə ki, bir cüdo mütəxəssisi kimi həmişə qarşıya qoyduğum yeganə hədəf vətənpərvər, sağlam gənclərin yetişdirilməsidir. Düşünürəm ki, filialımızın açılması kütləviliyin təmin olunmasına kömək olacaq" - deyə, Azər Bağırov bildirdi.

Hər bir müəllimin tələbələri onun təcrübəsinin, bacarığının göstəricisidir. Müsahibimizin fikrincə, qazanılan hər bir uğurun yarısı müəllimin, yarısı isə idmançının payına düşür: "Mənim titullu, o cümlədən bu gün məşqçi-müəllim kimi çalışan tələbələrim kifayət qədərdir. Məsələn "Zenit" idman klubunun cüdo bölməsinin məşqçisi Emin Fətullayev, onun qardaşı Azər Fətullayev, dünya çempionatının gümüş mükafatçısı Kəramət Hüseynov, illərdir ki, cüdo müəllimi kimi çalışan Vahid Tarverdiyev və digərləri məhz "Şahin" idman klubunun yetirmələridir. Klubumuzda adını çəkdiyim yetirmələrimin uğur yolunu davam etdirən idmançılar yetişirlər. Yeniyetmə cüdoçularımızdan Samir Əliquliyev ötən il DİN İC-in 100 illiyinə həsr olunmuş yarışda çempion adını qazandı. O, 2017-ci ildə Ümumilli lider Heydər Əliyevin anım gününə həsr edilmiş turnirdə bürünc medala layiq görüldü. Əminliklə deyə bilərəm ki, Samir çox perspektivli idmançıdır, o, hətta Olimpiya çempionu da olmağa qadirdir. Belə ki, cüdoçumuz builki Azərbaycan birinciliyində ilk dəfə olaraq 46 kq çəki dərəcəsində qüvvəsini sınadı. Həm də özündən iki yaş böyüklərlə güləşdi. Doğrudur, Samir bu yarışı beşinci yerdə başa vurdu. Əsas odur ki, yetirməmiz öz gücünü ortaya qoydu, bir neçə rəqibi məğlub etdi və əsl idmançı xarakterinə sahib olduğunu göstərdi. Tələbələrimizdən Səməd Əliyev bu il 52 kq çəki dərəcəsində sambo üzrə respublika birincisi oldu. O, eyni zamanda dəfələrlə beynəlxalq turnirlərin qalib və mükafatçısıdır. Amin Kərimov 3 ildir ki, məşğul olmasına baxmayaraq artıq Bakı birinciliyinin gümüş mükafatçısıdır. Amin həm də 13 saylı İxtisaslaşdırılmış Olimpiya Uşaq və Gənclər İdman Məktəbinin (İOUGİM) açıq birinciliyini fəxri kürsünün ikinci pilləsində başa vurub.

Ümumiyyətlə, məşqçi-müəllim sadəcə idmançıya istiqamət verə bilər. Əgər uşaq, yeniyetmə və ya gəncdə idmana həvəs yoxdursa, o, hər dəfə məşqə çempion olmaq əşqi ilə gəlmirsə, onda ən yaxşı halda cüzi nəticələrlə kifayətlənməli olacaq. Məşqçi ilə idmançının eyni məqsədi varsa, onlar vahid məqsəd uğrunda birlikdə çalışmalıdırlar."

Söhbət zamanı məlum oldu ki, Azər Bağırov həm də 158 saylı tam orta məktəbdə "Gənclərin çağırışaqədərki hərbi hazırlığı" fənnini tədris edir. O, müharibə iştirakçısı olub, göstərdiyi xidmətlərə görə polkovnik-leytenant rütbəsinə qədər yüksəlib. Maraqlıdır ki, Azər müəllimin eyni zamanda hərbçi olması yetirmələrinə vətənpərvərlik hisslərinin aşılanmasında hansı rola malikdir? Bu barədə danışan müsahibimiz bildirdi ki, istənilən idmançı üçün ən əsas keyfiyyət onun vətənpərvərliyidir. Əgər idmançıda vətən, bayraq, himn sevgisi yoxdursa, onun beynəlxalq arenalarda qalib gəlməsi olduqca çətindir. "Yüzlərlə idmançı var. Əlbəttə, onların hər biri fərqli xüsusiyyətlərə, xarakterlərə malikdir. Ancaq mən belə düşünürəm ki, hər bir idmançı hamı kimi vətənini sevməlidir. Məni həm idmandakı yüksək zirvələrə, həm də döyüşə aparan qüvvə məhz vətəndaşlıq qüruru olub. Bu səbəbdən də çalışıram ki, yetirmələrimi ilk növbədə layiqli vətəndaş kimi böyüdüm. Ən çətin anlarda əsgər kimi idmançıya da güc verən amil onun vətəndaşlıq mövqeyidir. Məğlubiyyət ehtimalı ilə üz-üzə gələndə idmançı heç nə düşünmür - nə özünü, nə valideynlərini, nə də məşqçisini. Sadəcə bir anlıq bayraq gözü qarşısına gəlir və həmin bayrağı dalğalandırmaq üçün bütün gücünü ortaya qoyur. Dediyim kimi, əsgərlər də belədir. Onlar da döyüşə gedəndə vətəndən başqa heç nə düşünmürlər. Bu mənada əsgərlə idmançını müqayisə etmək olar. Fəxr edirəm ki, milli qəhrəmanlarımız Mübariz İbrahimov, Çingiz Qurbanov hərbi xidmətə hazırlıq müddətini məhz "Şahin" cüdo klubunda keçiblər. Mən də valideynəm. Yaxşı bilirəm ki, ana-ataların sevinci də, kədəri də ilk növbədə övladla bağlıdır. Əgər yeniyetmə və gənclər sağlam, vətənpərvər olub, həm təhsildə, həm də idmanda nailiyyətlər qazanarlarsa, valideyn də sevinər" - deyə, həmsöhbətimiz fikirlərini bölüşdü.



### "İlk edilən səhvə xəta, ikinciyə seçim deyilir"

Bütün idman növlərində, eləcə də, cüdo da məşqin əsas hissəsi başlanmazdan əvvəl isinmə hərəkətləri yerinə yetirilir. Bəzi idmançılar bu məsələyə laqeyd yanaşırlar. Azər müəllim isə bildirdi ki, heç bir məşqi isinmə hərəkətləri olmadan təsəvvür etmək olmaz. "İdmançı üçün isinmə hərəkətləri olduqca mühümdür. Doğrudur, məhz məşq prosesesinin sonrakı mərhələlərində idmançılar öz bacarıqlarını təkmilləşdirir, konkret tapşırıqlara müvafiq olaraq bir-birlərini sınağa çəkirlər. Lakin əgər isinmə hərəkətləri düzgün, dəqiq yerinə yetirilməzsə idmançı bu və ya digər formada zədə ala bilər. Gimnastika və akrobatik hərəkətlər birbaşa olaraq bədənin isinməsinə, elastikləşməsinə xidmət edir. Sevindirici haldır ki, bizim məşq prosesimizdə, demək olar ki, zədə alma hallarına rast gəlinmir. Bu, təsadüfi deyil. Birbaşa olaraq gimnastikanın, akrobatikanın nəticəsidir. Əslində standart məşq müddəti bir saat yarımdır. Lakin "Şahin"də məşq iki saat davam edir. Çünki mən məşq prosesinin 40 dəqiqəsini ancaq isinmə hərəkətlərinə sərf edirəm. Dediyim kimi, gimnastika və akrobatika çox vacibdir. Məhz akrobatika sayəsində idmançı bilir ki, yıxılan zaman əli qabağa uzatmaq yox, mayallaq aşmaq lazımdır. Bəzi həvəskar idmançılar elə bilirlər ki, əllərini yerə uzadarkən özlərini yıxılmaqdan qoruya bilərlər. Bu, düzgün deyil. Bədənin çəkisi qollardan ağırdır. Nəticədə bədənin bütün ağırlığı qolların üzərinə düşür və burxulma hallarına rast gəlinir. Hər məşq akrobatikanı düzgün icra edən idmançı bilir ki, konkret vəziyyətlərdə nə etmək lazımdır. İkinci bir tərəfdən, təcrübəmə əsasən deyə bilərəm ki, bəzi uşaq və yeniyetmələr yıxılmaqdan qorxurlar. Əlbəttə, bu da səhvdir. İdmançı qorxaq olmamalıdır. Yıxılırsa, təmkinlə ayağa qalxmalı və daha böyük əzmlə mübarizə aparmalıdır. Belə olanda idmançıda tədricən xarakter formalaşacaq. Xarakter idmançı üçün çox mühümdür. Möhkəm xarakterə sahib olmayan idmançı ilk məğlubiyyətdə ruhdan düşəcək. Xarakteri formalaşdırmaq üçün isə gərək bəzən arzuolunmaz hallarla da rastlaşasan. Hər bir insanın, eləcə də, idmançıların həyatını ziqzaqa bənzətmək olar. Yəni eniş olduğu kimi, yoxuş da var. Əsas məsələ odur ki, niyə uduzduğunu bilib, növbəti dəfə həmin səhvi təkrarlamayasan. Rus mütəfəkkiri Fyodor Dostoyevskinin yaxşı bir sözü var: "İlk edilən səhvə xəta, ikinciyə seçim deyilir. Gərək səhv seçimə çevrilməsin" - deyə, Əməkdar məşqçi vurğuladı.

### "Mübarizədə qalib gəlmək üçün gərək peşəkar olasan"

Etiraf etmək lazımdır ki, bu gün qadınların idmanla məşğul olması bəzən müzakirələrə səbəb olur. Bir çoxları öz fikirlərini əsaslandırmağa çalışaraq deyirlər ki, idman zərif cins nümayəndələrini kobudlaşdırır. Azər Bağırovun fikrincə, təkmübarizlik idman növləri, eləcə də, cüdo ilk növbədə müdafiə vasitəsidir. Özünümüdafiə cinsindən asılı olmayaraq hər kəs üçün vacibdir. Cüdo bunun üçün ən yaxşı vasitədir. Bir anın içində dəqiq yerinə yetirilmiş fənd bütün vəziyyəti dəyişə bilər. Mənim idmançı kimi güləşdiyim vaxtlarda olduğu kimi, indi də cüdoçulardan çəkinirlər. Əgər belə demək mümkünsə, bu, cüdo idman növünün nüfuzu, çəkisi ilə bağlıdır. Ancaq bilmək lazımdır ki, cüdo hücum yox, yalnız müdafiə üçündür. Adətən təkmübarizlik idman növləri ilə məşğul olan idmançıların "sevimli fənd"ləri olur. Yəni idmançı konkret fəndi digərlərinə nisbətən daha uğurlu tətbiq edir. Hətta müşahidələrdən məlum olur ki, bəzən idmançı özünün "sevimli fənd"inə arxayın olub, digər fəndlərə laqeyd yanaşır. Bu məsələ haqqında danışan "Şahin" idman klubunun baş məşqçisi vurğuladı ki, əsl idmançı bütün fəndləri maksimum dərəcədə yaxşı tətbiq etməyi bacarmalıdır. " "Sevimli fənd" anlayışından xüsusilə cüdoda daha çox istifadə olunur. Bu, o deməkdir ki, idmançı bir fəndi daha yaxşı bacarır. Məsələn ola bilər ki, bir idmançının ağrıdıcı fəndləri daha effektlidir, digəri boğucu fəndləri daha yaxşı bacarır. Bu, həmin idmançının silahı hesab olunur. Lakin bir fəndlə ən yaxşı halda bir neçə yarışda qalib gəlmək olar. Çünki sonradan rəqiblər "sirr"i tapıb, əks fənd tətbiq edəcəklər və ya sadəcə həmin fəndin icra edilməsi üçün şəraitin yaranmasına imkan verməyəcəklər. Belə ki, bu və ya digər fəndi tətbiq etmək üçün, əvvəlcə, lazımi situasiya yaradılmalıdır. Bacarıqlı idmançı həmin situasiyanı yaradaraq, "sevimli fənd"ini tətbiq edəcək. Peşəkar idmançı isə hər vəziyyətdən uğurlu istifadə etməyi bacarır. Mübarizədə qalib gəlmək istəyirsənsə, gərək peşəkar olasan. Ona görə də çalışırıq ki, bütün idmançılarımız bütün fəndləri eyni dərəcədə mənimsəsinlər. Lakin yadda saxlamaq lazımdır ki, hər idmançının öz güləş üslubu var. Bu, belə də olmalıdır. Mən deyərdim ki, idmançının üslubu onun imzasıdır" - deyə, Azər müəllim əlavə etdi.

### "İdmançılara sərbəstlik vermək lazımdır"

Həyatın bütün sahələrində nizam-intizam olduqca mühümdür. Şübhəsiz ki, bu, idmanda da belədir. İdmançılar verilən komandalara dəqiq əməl etməli, məşqçi-müəllimlərinin bütün tapşırıqlarını qüsursuz yerinə yetirməlidirlər. Azər Bağırovun bu məsələ ilə bağlı fikirləri maraqlıdır. "Bəzən idmançıya sərbəstlik vermək lazımdır ki, o, müstəqil qərar verməyi bacarsın. İdmançı nəyin düz, nəyin səhv olduğunu bilməklə yanaşı, konkret addımı atmaq üçün müəllimin tapşırığını gözləməməlidir. Məsələn, tələbə görəndə ki, müəllimin əlində jurnal yoxdur cəld gedib jurnalı gətirməli və ya bunun üçün icazə almalıdır. Gözləmək lazım deyil ki, müəllim kiməsə müraciət etsin. Bu, yarışda da belədir. İdmançı bu və ya digər fəndi yerinə yetirmək üçün məşqçinin üzünə baxaraq, necə deyərlər, həsrətlə "et!" komandasını gözləməli deyil. Bəzən elə olur ki, yarışda eyni vaxtda müxtəlif tatamilərdə bir məşqçinin iki idmançısı güləşir. Əlbəttə, müəllimin onların ikisinə də nəzarət etməsi çətin olur. İdmançı özü məşqdə keçilənləri yada salmalı, müstəqil mübarizə aparmalıdır. Məşqçi-müəllimin də hər bir köməyini hədiyyə kimi qəbul etmək lazımdır. Yəni idmançı arxayın olmamalıdır ki, müəllimim mənə kömək edəcək. Dediyim odur ki, idmançını robot kimi yetişdirmək düzgün deyil. Onu daim nəzarətdə saxlamaq şərtilə sərbəst olmasını təmin etmək lazımdır."

Azər müəllimlə söhbətin sonuna yaxın həvəslə məşq edən idmançılardan bir neçəsi diqqətimi cəlb etdi. Onlarla da söhbət etməyi qərara aldım. 3 ildir ki, "Şahin" cüdo klubunda bu idman növü ilə məşğul olan Amin Kərimov bildirdi ki, o, Rio-2016 Olimpiadasının gümüş mükafatçısı, Avropa çempionu Rüstəm Orucovu özünə kumir seçib: "Rüstəm Orucov kimi bir idmançı olmaq istəyirəm. Onun qazandığı nailiyyətlər göz qabağındadır. Həm də sadə, mehriban və səmimi insandır. İndiyə kimi bir neçə açıq birinciliyin, beynəlxalq turnirin qalib və mükafatçısı olmuşam. Ancaq çalışacağam ki, gələcəkdə Rüstəm Orucovun fəth etdiyi zirvələrə qədər qalxım. Bununla da həm valideynlərimi sevindirim, həm də məşqçilərimin etimadını doğruldum."

Hələ bir ildir ki, cüdonun sirlərinə yiyələnən Ümid və Süleyman Şamilov qardaşları isə dedilər ki, onlar ilk növbədə sağlam olmaq üçün cüdo bölməsinə yazılıblar. Qardaşların fikrincə, əgər sağlamlıq olarsa gələcəkdə bütün nəticələri əldə etmək mümkündür.

Göründüyü kimi, idman ocaqlarından biri olan "Şahin" cüdo klubunda uşaq və yeniyetmələr həvəslə məşq edir və nəticədə müxtəlif turnirlərdə əldə etdikləri uğurlarla həm özlərini, həm valideynlərini, həm də məşqçi-müəllimlərini sevindirirlər. Eyni zamanda, şübhəsiz ki, idmanın kütləviliyi artır, sağlam gənc nəsil yetişir. Bu istiqamətdə idman klublarının, məktəblərinin, cəmiyyətlərinin danılmaz rolu var. Əgər onların hər birində məşq prosesi, müəllim-idmançı-valideyn əlaqələri düzgün qurulsa, əlbəttə, gələcəkdə də idman Azərbaycanda özünün kütləviliyi ilə seçiləcək. Bu gün "Şahin" idman klubunda olduğu kimi, digər klublarda da təcrübəli idmançı mütəxəssisləri öz işlərinin öhdəsindən layiqincə gəlməlidirlər ki, fiziki və mənəvi cəhətdən sağlam nəsil yetişsin.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

*Qış Olimpiya oyunlarının tarixi*

# "Ağ olimpiadanın hərarəti" sərt qışın soyuğuna qarşı

***Yay Olimpiya Oyunları kimi, Qış Olimpiya Oyunları da özünəməxsusluğu ilə seçilir. Milyonların sevə-sevə izlədiyi yay və qış Olimpiya oyunlarının saysız-hesabsız azarkeşləri və pərəstişkarları vardır. Maraq dairəsi müxtəlif olan insanların bəzisi yay, bəzisi isə qış Olimpiya Oyunlarına üstünlük verirlər.***

## Qış Olimpiya Oyunlarının yaranmasını kimlər istəmirdi?

"Ağ olimpiada" (1924) yaranma tarixinə görə yay Olimpiya Oyunlarından (1896) daha "gənc"dir. Qış idman növü olan fiqurlu konkisürmə yarışları ilk dəfə 1908-ci ildə Londonda keçirilən IV Yay Olimpiya Oyunlarının proqramında nümayiş etdirilib. İştirakçıların sayı az olduğundan bu növ üzrə yarışlarda rəqabət zəif olub. İkinci dəfə qış idman növləri 1920-ci ildə Antverpen Yay Olimpiya Oyunlarının proqramına daxil edilib.

Müasir Olimpiya Hərəkatının banisi Pyer de Kuberten hələ XX əsrin əvvəllərində qış idman növləri üzrə ayrıca Olimpiya oyunlarının keçirilməsi barədə təklif verməmişdi. Beynəlxalq Olimpiya Komitəsi Kubertenin bu təklifini dəfələrlə müzakirə etsə də, müsbət nəticəyə gələ bilməmişdi. Çünki Skandinaviya ölkələri bununla razılaşmaq istəmir, İsveç və Norveç ölkələrinin idman nümayəndələri isə bu təklifi lüzumsuz hesab edirdilər. Onlar iddia edirdilər ki, qış idman növləri üzrə məşhur idmançılar, onsuz da, 1901-ci ildən keçirilən ənənəvi Şimal Oyunlarında iştirak edirlər və ayrıca Qış Olimpiya Oyunlarının keçirilməsinə ehtiyac yoxdur.

Skandinaviya ölkələrinin qış idman növləri üzrə beynəlxalq miqyasda tanınmış və güclü idmançıları olduğu üçün bu ölkələrin mövqeyinə qarşı çıxmaq ağılsızlıq idi. Çünki bu ölkələrin iştirakı olmadan dünya miqyasında qış idman növləri üzrə keçirilən hər hansı bir nüfuzlu idman tədbirinin təşkilində danışmağa dəyməzdi. Belə oyunların geniş miqyasda keçirilməsinin əleyhdarları qış idman növlərinin qədim ənənələrinə malik olmamasını bir fakt kimi göstərərək "Olimpiya" sözünün bu yarışlara aid edilməsini düzgün hesab etmirdilər.

## Baronun əzmkarlığı və qətiyyəti bu tarixi əhəmiyyətli məsələdə də bəhrəsini verdi

Lakin Olimpiya ideyalarının və prinsiplərinin təbliğində əvəzsiz xidmətləri olan mübariz insan Pyer de Kuberten bu əhəmiyyətli məsələdə yüksək əzmkarlıq və qətiyyət nümayiş etdirdi. Onun təklifi ilə BOK-un 1922-ci ildə keçirilən Paris sessiyasında əsas müzakirə mövzusu qış idman növləri üzrə Olimpiya oyunlarının keçirilməsi oldu. Nəhayət, uzun sürən diplomatik danışıqlardan sonra, baron narazı ölkələrlə razılıq əldə edə bildi. Paris sessiyaının qərarına görə I Qış Olimpiya Oyunlarının 1924-cü ildə keçirilməsi planlaşdırıldı. Olimpiya oyunları tarixində böyük xidmətləri olan əvəzsiz insan Pyer de Kubertenin istefaya getməsi ilə əlaqədar I Qış və VIII Yay Olimpiya Oyunlarının Fransanın Paris şəhərində keçirilməsi qərara alındı.

## Yay və Qış Olimpiya Oyunları arasında iki illik fasilə

1991-ci ildə Beynəlxalq Olimpiya Komitəsinin sessiyasında 1994-cü ildən başlayaraq yay Olimpiya Oyunlarının qış Olimpiya Oyunları ilə növbəli keçirilməsi və oyunlar arasında 2 illik fasilənin təmin edilməsi haqqında qərar qəbul edildi: XVII Qış Olimpiya Oyunlarının 1994-cü ildə, XXVI Yay Olimpiya Oyunlarının isə 1996-cı ildə keçirilməsi planlaşdırıldı. O vaxtdan etibarən yay və qış Olimpiya oyunları iki illik fasilə ilə növbəli keçirilir.



İndiyədək cəmi 20 Qış Olimpiya oyunları keçirilib və 37 ölkənin təmsilçiləri medal qazanıblar. İkinci Dünya müharibəsi ilə əlaqədar 1940, 1944-cü illərdə nəzərdə tutulan qış olimpiadaları baş tutmayıb.

Növbəti XX "ağ olimpiada" 2010-cu ilin fevral ayının 12-dən 28-dək Kanadanın Vankuver şəhərində keçirilib. Vankuverdə 7 qış Olimpiya idman növü üzrə qüvvələrini sınayan idmançılar 86 dəst medal uğrunda mübarizə aparıblar. Bu, Turin-2006 ilə müqayisədə 2 dəst çoxdur. Vankuver Olimpiadasına kişi və qadınlar arasında ski kross üzrə 2 dəst əlavə olunub. Ski-kross fristayl növünə daxildir.

**Qış Olimpiya Oyunlarının proqramına daxil edilən idman növləri**

1. Biatlon
2. Kerlinq
3. Xizək yarışları
4. Skeleton
5. Fristayl
6. Bobsley
7. Konki idmanı
8. Tramplindən tullanma
9. Snoubord
10. Moqul
11. Dağ xizəyi yarışları
12. İkinövçülük (xizək)
13. Kirşə idmanı
14. Fiqurlu konkisürmə
15. Şort-trek

İndiyədək keçirilən bütün Qış Olimpiya Oyunlarında əldə edilmiş medallara görə ilk onbeşlikdə yer alan ölkələrin siyahısını təqdim edirik.

**Bütün Qış Olimpiya Oyunlarının medalları**

| | Q | G | B | Cəmi |
|---|---|---|---|---|
| 1. Rusiya | 114 | 83 | 77 | 274 |
| 2. Almaniya | 108 | 105 | 87 | 300 |
| 3. Norveç | 94 | 95 | 76 | 285 |
| 4. ABŞ | 70 | 72 | 52 | 194 |
| 5. Finlandiya | 42 | 51 | 49 | 142 |
| 6. Avstriya | 41 | 57 | 64 | 162 |
| 7. İsveç | 39 | 30 | 39 | 108 |
| 8. İsveçrə | 32 | 33 | 38 | 108 |
| 9. Kanada | 31 | 28 | 37 | 96 |
| 10. İtaliya | 31 | 31 | 27 | 89 |
| 11. Fransa | 22 | 22 | 28 | 72 |
| 12. Hollandiya | 22 | 28 | 19 | 69 |
| 13. Koreya | 11 | 5 | 4 | 20 |
| 14. Yaponiya | 8 | 10 | 13 | 31 |
| 15. B. Britaniya | 8 | 4 | 15 | 27 |

## I Qış Olimpiya Oyunları

**25 yanvar- 4 fevral 1924-cü il (Paris, Şamoni)**

I Qış Olimpiya Oyunları Fransanın kurort şəhəri Şamonidə keçirildi. Şamoni Olimpiya Oyunlarında 16 ölkədən 280 idmançı iştirak edirdi.

**Proqram**

Şamoni Oyunlarının proqramına xizək yarışı, ikinövçülük üzrə tramplindən tullanma və 500, 1500, 5000 və 10.000 məsafələrə konki yarışları, bobsley və fiqurlu konkisürmə daxil edilmişdi. Proqramda ABŞ-da populyar idman növü olan dağ xizəyi yarışları da nümayiş etdirilirdi.

**Nəticələr**

Norveç 122,5 xalla (18 medal- 4 qızıl, 7 gümüş və 7 bürünc) I, Finlandiya 59,5 xalla (9 medal-4 qızıl, 3 gümüş və 2 bürünc) II, ABŞ 26 xalla (3 medal- 1 qızıl, 2 gümüş) III yeri tutdu.

I Qış Olimpiya Oyunlarında qış idman növlərinin yaxşı inkişaf etdiyi ölkələrin idmançıları ilə yanaşı (Norveç, Finlandiya, İsveç, Avstriya, İsveçrə, Fransa, Kanada, ABŞ), digər ölkələrin (İngiltərə, Belçika, İtaliya, Çexoslovakiya, Macarıstan, Yuqoslaviya, Polşa, Litva) idmançıları da qüvvələrini sınayırdılar.

"Ağ olimpiada"ya konkisürənlər start verdilər. Ən qısa (500 m) məsafəyə yarışlarda 27 idmançının adı qeydiyyatdan keçmişdi. I Qış Olimpiya Oyunlarının ilk qızıl medalını amerikalı Çarlz Cutrau qazandı. Skandinaviya təmsilçiləri 5000 m məsafəyə keçirilən yarışlarda ilk beş yeri tutdular. Konki yarışlarında 1500 m məsafəyə ən yaxşı nəticəni isə fin idmançı Klas Tunsberq göstərdi.

10000 məsafəyə yarışlarda idmançılar iki qızıl medal uğrunda mübarizə aparırdılar. Axırıncı məsafəyə yarışlardan sonra yenidən dörd məsafə üzrə qaliblər müəyyən edilməli idi. Konki sürən olimpiyaçılardan yalnız 9-u yarışmaq arzusunda olduğunu bildirdi. Bu yarışlarda Tunsberq və Larsen fərqləndilər.

Qeyd etmək lazımdır ki, Avstriya idmançıları kişilər arasında fiqurlu konkisürmə yarışlarında çox fəal mübarizə aparırdılar. Kişilər arasında mübarizə ikiqat dünya və Olimpiya çempionu, İsveç təmsilçisi Gillis Qrafstryom ilə avstraliyalı Vilhelm Byekle arasında gedirdi. Qızıl medalı isveçli idmançı qazandı. Daha bir qızıl medalı ikiqat dünya çempionu avstraliyalı Germa Plank əldə etdi.

Şamonidə qadınlar arasında fiqurlu konkisürmə yarışlarında axırıncı 8-ci yeri tutan balaca norveçli qızın -Sonya Heninin adı hələ idman aləmində heç nə demirdi. 5-6 ildən sonra isə S.Henini dünya idmanında məşhur simalardan biri olacaqdı.

Fiqurlu konkisürmə üzrə cütlüklərin yarışında Antverpen-1920 Olimpidasının çempionları Lyudovik və Volter Yakobsson fərqləndilər.

Dağ xizəyi yarışlarında şimal ölkə idmançılarının üstünlüyü xüsusi ilə diqqət çəkirdi.

Buz üstündə hokkey turnirinin final görüşündə Kanada və Amerika idmançıları mübarizə aparırdılar. Kanadalılar amerikalıları böyük hesabla (6:1) məğlubiyyətə uğradaraq ikinci dəfə hokkey üzrə dünyada ən güclü komanda olduqlarını sübuta yetirdilər.

I Qış Olimpiya Oyunlarında Norveç idmançıları komanda hesabında yüksək nəticələr əldə etdilər. Norveç Olimpiya yığması 10 ölkənin birlikdə toplaya bildiyi xalı qazanmışdı.

Bu Oyunlar idman aləmində böyük marağa səbəb oldu. Əvvəllər qış oyunlarının keçirilməsinə etiraz edən ölkələr dünyanın ən güclü idmançılarının bir araya gəldiyi möhtəşəm idman bayramının əhəmiyyətini başa düşdülər. Beynəlxalq Olimpiya Komitəsi 1925-ci ildə Qış Olimpiya Oyunlarının müntəzəm keçirilməsi barədə qərar qəbul etdi.

## II Qış Olimpiya Oyunları

**11- 19 fevral 1928-ci il (Sankt-Morris)**

II Qış Olimpiya Oyunlarında 25 ölkədən 464 idmançı qüvvəsini sınayırdı. Almaniya, Hollandiya, Rumıniya, Litva, Estoniya, Lüksemburq, Argentina, Meksika və Yaponiya ilk dəfə Qış Olimpiya Oyunlarında iştirak edirdilər.

**Proqram**

Qış olimpiadasının proqramında bəzi dəyişikliklər edilmişdi. Yarışların cədvəlinə tramplindən tullanma, fiqurlu konkisürmə və bobsleydən başqa, skeleton yarışları da daxil edilmişdi. İdmançılar əvvəlki olimpiadada olduğu kimi, skeleton yarışlarında dördadamlıq deyil, beşadamlıq xizəklərdə yarışırdılar.

**Nəticələr**

Norveç 93 xalla (15 medal-5 qızıl, 5 gümüş və 5 bürünc) I, ABŞ 45 xalla (6 medal-2 qızıl, 3 gümüş və 1 bürünc) II, İsveç 35 xalla (5 medal- 2 qızıl, 2 gümüş və 1 bürünc) III yerə layiq görüldü.

## Bir medala 4 namizəd

II Qış Olimpiya Oyunları 1928-ci ilin fevral ayında İsveçrənin Sankt-Morris şəhərində keçirildi. Budəfəki Olimpiya oyunlarında daha çox idmançı iştirak edirdi.

Hava şəratinin əlverişsiz keçməsi yarışların yüksək səviyyədə təşkilində maneçilik törədirdi. Konki sürənlərin 500 m məsafəyə yarışlarında cəmi 3 medal uğrunda mübarizə gedirdi. Qaliblərin sayı isə 6 nəfər idi. Ən yaxşı nəticələr Finlandiya təmsilçisi Klas Tunsberq (43,4 san.) və norveçli Bernta Evensenə məxsus idi. III yerin sahibini müəyyən etmək üçün hakimlər məsləhətləşməli oldular. Çünki bürünc medal uğrunda dörd nəfər idmançı mübarizə aparırdı. Yarış təşkilatçıları vəziyyətdən çıxış yolunu növbəti yarışlar üçün müəyyən edilmiş medalların (1 qızıl və 3 bürünc) bu idmançılar arasında bölüşdürülməsində gördülər.

## Verilən medallar geri alındı

5000 m məsafəyə yarışlar zamanı güclü küləklə bərabər şiddətli qarın yağması vəziyyəti çətinləşdirdi. İdmançılardan bəzisi yarışlardan imtina etdi. Onların arasında Olimpiya çempionu Tunsberq də var idi. Son anda fikrini dəyişərək yarışa qoşulan idmançının cəhdi uğursuzluqla nəticələndi.

1500 m məsafəyə yarışlarda qızıl medal uğrunda mübarizə Tunsberq və Evensen arasında gedirdi. Finlandiya təmsilçisi yenə də fərqlənərək, 5-ci qızıl medala sahib çıxdı.

Hava şəratinin əlverişsiz keçməsi 10.000 m məsafəyə yarışların başa çatmasına imkan vermədi. Bu yarışlar idmansevərlərin yaddaşında Olimpiya tarixinə ən mübahisəli yarışlar kimi yazıldı. Belə ki, qaliblərə medalların verilməsi böyük hay-küyə səbəb oldu. Verilən medallar bir müddət sonra idmançılardan geri alındı.

Səhər tezdən 50 km məsafəyə xizək yarışlarının startı veriləndə havanın tempraturu - 0 dərəcədən aşağı idi. Lakin havanın birdən-birə istiləşməsi və qarın əriməsi xizək yolunda əlverişsiz vəziyyət yaratdı. Belə hava şəratində ancaq dözümlü idmançılar qalib gələ bilərdilər. Xizək yarışlarının favoriti sayılan norveçlilərin cəhdi də uğursuzluqla nəticələndi. Xizək yarışlarında I yerə isveçli Per- Erik Hedlund layiq görüldü. 2-ci və 3-cü yerlərin sahibləri də isveçlilər oldu.

Bundan üç gün sonra 18 km məsafəyə yarışlarda Norveç təmsilçiləri fərqləndilər. Onlar bu yarışlarda I, II və III yerləri bölüşdürdülər. Çempion adına Yoxan Qrettumsbroten layiq görüldü. Həmin idmançı səhəri gün tramplindən tullanma yarışlarının da qızıl medalını qazandı. Norveçlilər idmanın bu növündə yüksək nəticələr göstərdilər.

## Olimpiya çempionlarının mübarizəsi

4 il əvvəldə olduğu kimi, fiqurlu konki sürənlərin fərdi yarışlarında qızıl medal uğrunda mübarizə Gillis Qrafstryom və Vilhelm Byokl arasında gedirdi.

7 dəfə Olimpiya çempionu olmuş Byokl əsas proqramda yarışların ən güclü iştirakçısı, ikiqat Olimpiya çempionu Qrafstryomu qabaqlayaraq liderliyi ələ aldı. İsveç təmsilçisi zədə aldığına görə tam gücü ilə yarışa bilmirdi. Lakin sərbəst proqramda Byoklun bəxti yenə də gətirmədi. Qrafstryom isə dizindən zədəli olduğu halda gözəl oyun nümayiş etdirdi.

Tam gücü ilə mübarizə apara bilməyən idmançı üçüncü qızıl medalı da qazandı. Byokl isə ikinci gümüş medalla yarışları tərk etdi.

## Fiqurlu konkisürmə dünyasında yeni ulduz parlayırdı

Herma Plank-Sabo uzun müddət fiqurlu konkisürmə üzrə dünyanın bir nömrəli idmançısı sayılırdı. Lakin Sankt-Morris Olimpiadasından bir il əvvəl 15 yaşlı Norveç idmançısı Sonya Heni ilə tanış olan



Sabo ciddi rəqiblə qarşılaşdığını başa düşür. Sonya Heni kimi güclü rəqibə uduzacağını anlayan Herma Plank-Sabo növbəti olimpiadada iştirak etməkdən imtina edir. Gənc və istedadlı idmançı Sonya Heni Sankt-Morris Olimpiadasında misilsiz nailiyyətləri ilə idman aləmində yeni səhifə açmağa nail olur.

Cütlüklərin fiqurlu konkisürmə yarışlarında fransızlar - Andre Jali və Pyer Bryune xüsusilə, fərqləndilər. Avstriya fiqurçuları qızıl medallardan məhrum oldular. Bu növdə ən yüksək nəticələri isə Skandinaviya təmsilçiləri göstərdilər (3 qızıl medaldan 2-si onların payına düşürdü).

*(ardı var)*

***Səadət Hakıyeva***

# FUTBOL




## Milli komandamızın yeni baş məşqçisi müəyyənləşdi

Dünən Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının baş sponsoru SOCAR-ın inzibati binasında AFFA-nın İcraiyyə Komitəsinin növbəti iclası keçirilib.

İclasda Azərbaycan milli komandasının baş məşqçi təyin olunub. Qurban Qurbanovun istefaya göndərilməsindən sonra boş qalmış bu vəzifəyə xorvatiyalı Nikola Yurçeviç təyin edilib. Yaxın günlərdə məşqçi ilə müvafiq müqavilə imzalanacağı bildirilib.

Tədbirdə həmçinin aşağı yaş qruplarından ibarət milli komandalarda baş məşqçi təyinatları təsdiqlənib. Azərbaycanın U-21 komandası Milan Obradoviçə, U-19 yığması Samir Əliyevə, U-15 və U-16 komandaları isə Miloş Velebitə həvalə olunub.

Miloş Velebit eyni zamanda U-15, U-16, U-17, U-18 və U-19 milli komandalarının koordinatoru kimi fəaliyyət göstərəcək.

Qeyd edək ki, məşqçilik karyerasına 2002-ci ildə ölkəsinin “Zaqreb” klubunda başlayan Yurçeviç daha sonra Zaqreb”Dinamo”su, Avstriyanın “Austriya” və Xorvatiyanın “Slaven Belupo” komandalarını çalışdırıb. O, 2006-2017-ci illərdə müvafiq olaraq Xorvatiya yığması, Moskva “Lokomotiv”i, “Beşiktaş” və “Vest Hem”də Slaven Biliçin köməkçisi olub. Yurçeviç son olaraq, Zaqreb “Dinamo”sunu çalışdırıb. O, ötən mövsümün sonuna 2 tur qalmış istefaya göndərilib.

## UEFA-dan Bakıya sonuncu işgüzar səfər




Futbol üzrə Avropa Liqası turnirinin 2019-cu ildə Bakı Olimpiya Stadionunda keçiriləcək final oyununa hazırlıq çərçivəsində UEFA nümayəndələrinin Bakıya sonuncu - 5-ci işgüzar səfəri başlayıb.

Fevralın 15-dək davam edəcək səfər proqramında UEFA-nın 57 nəfərdən ibarət işçi heyəti stadion, mobillik, fan zona, mehmanxanalar, könüllülük, təhlükəsizlik, marketinq, media və sair məsələlərlə yerində tanış olacaq, fikir mübadiləsi aparılacaq.

## AÇ-2020: 3 stadion və 3 otel

UEFA milli komandaların AÇ-2020-nin keçiriləcəyi şəhərlərdəki təlim-məşq bazalarının və qalacağı otellərin onlayn-kataloqunu təqdim edib. Siyahıda Avropa çempionatına ilk dəfə ev sahibliyi edəcək Bakıya aid bölmədə 3 stadion və 3 otel yer alıb.

“Bakcell Arena”nı seçəcək milli komandaya “Fairmont Baku Flame Towers Hotel”, “Dalğa Arena” üçün “Bilgah Beach Hotel”, Tofiq Bəhramov adına Respublika stadionunda məşq edəcək yığmaya isə “Excelsior Hotel & Spa Baku” təklif edilib.

Xatırladaq ki, Avropa çempionatının Bakı ilə yanaşı, London (İngiltərə), Münhen (Almaniya), Sankt-Peterburq (Rusiya), Roma (İtaliya), Kopenhagen (Danimarka), Buxarest (Rumıniya), Amsterdam (Hollandiya), Dublin (İrlandiya), Bilbao (İspaniya), Budapeşt (Macarıstan) və Qlazqoda (Şotlandiya) keçiriləcək. Qrup mərhələsinin 3, 1/4 final mərhələsinin isə 1 oyunu Bakı Olimpiya Stadionunda olacaq.



## UEFA rəhbəri dəyişmədi

Ötən həftə UEFA-da prezident seçkisi keçirilib. Təşkilatın hazırkı rəhbəri Aleksandr Çeferin ikinci dəfə prezident seçilib. Çeferinin vahid namizəd olduğu və bu səbəbdən formal xarakter daşıyan seçkidə UEFA-ya üzv olan bütün (55) milli assosiasiyalar, o cümlədən, AFFA sloveniyalı futbol funksionerinə səs verib.

Qeyd edək ki, 2016-cı ildən UEFA-ya rəhbərlik edən Çeferin 2019-2023-cü illərdə də qurumun prezidenti olacaq.



## “Neftçi”nin futbolçusundan 150-ci qol

Topaz Premyer Liqasında 2018/19 mövsümünün 150-ci qolu vurulub. Bu qolun müəllifi “Neftçi” - “Keşlə” qarşılaşmasında hesabı açan Emin Mahmudov olub.

Xatırladaq ki, mövsümdə ilk qolu 1-ci turun “Sumqayıt”la oyununda (2:0) “Neftçi”nin futbolçusu Mirabdulla Abbasov, 50-ci qolunu “Səbail”lə 6-cı turda (4:0) onun komanda yoldaşı Dario Frederiko vurub. 100-cü top isə 11-ci turun “Qəbələ” - “Qarabağ”görüşündə (1:3) hesabı açan meydan sahiblərinin futbolçusu Ceyms Adeniyinin aktivinə yazılıb.

Qeyd edək ki, “Keşlə” ilə qarşılaşmada komandasının hər iki qoluna imza atan Mahmudov karyerasında ilk dublu rəsmiləşdirib.

*Turnir cədvəli*

| | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|
| *1. Neftçi* | *16* | *11* | *4* | *1* | *29-11* | *37* |
| *2. Qarabağ* | *16* | *10* | *4* | *2* | *35-15* | *34* |
| *3. Səbail* | *16* | *7* | *3* | *6* | *19-16* | *24* |
| *4. Qəbələ* | *16* | *6* | *5* | *5* | *19-18* | *23* |
| *5. Sabah* | *16* | *6* | *2* | *8* | *14-21* | *20* |
| *6. Sumqayıt* | *16* | *4* | *3* | *9* | *13-23* | *15* |
| *7. Zirə* | *16* | *3* | *4* | *9* | *14-27* | *13* |
| *8. Keşlə* | *16* | *3* | *3* | *10* | *16-28* | *12* |

## Birinci divizionda həyəcan başlayır

Azərbaycan birinci divizionunda XV turun oyun cədvəli müəyyənləşib. Fevralın 14-ü və 15-də keçiriləcək bütün görüşlər saat 15:00-da başlayacaq. Turnirdə aşağıdakı komandalar üz-üzə gələcəklər.

**14 fevral**
**(cümə axşamı)**

“Zaqatala” - “Sabah-2”
Zaqatala şəhər stadionu

“Neftçi-2” - “Kəpəz”
“ASK Arena”

**15 fevral (cümə)**

“Keşlə-2” - “Qaradağ Lökbatan”
“ASK Arena”

MOİK - “Turan Tovuz”
Lökbatan Olimpiya İdman Kompleksinin stadionu

“Ağsu” - “Şüvəlan”
Ağsu şəhər stadionu

“Səbail-2” - “Sumqayıt-2”
“Bayıl Arena”

## “La Skala” səhnəsində futbol mərasimi

The Best FİFA Football Awards-2019 mükafatlandırılma mərasiminin yeri və vaxtı müəyyənləşib. Dünyanın ali futbol qurumunun tədbiri sentyabrın 23-ü İtaliyanın Milan şəhərinin “La Skala” teatrında keçiriləcək.

Qeyd edək ki, 2018-ci ildəki mükafatlandırma mərasimi İngiltərə paytaxtı Londonda olmuşdu. Həmin vaxt Luka Modriç (Xorvatiya, “Real”) ən yaxşı futbolçu, Didye Deşam (Fransa) ən yaxşı məşqçi seçilmişdi.

## DÇ-2022 üçün 9 cavabdeh şəxs seçilib




Beynəlxalq Futbol Federasiyası (FİFA) və Qətər iştirakçılar və azarkeşlər üçün rahat şəraitin yaradılmasına kömək məqsədilə 2022-ci il dünya çempionatının təşkili üzrə birgə müəssisə yaradıldığını elan ediblər. Birgə müəssisə “FİFA World Cup Qatar 2022 LLC” adlanacaq. Fevralın 5-də Dohada müəssisənin doqquz nəfərdən ibarət idarə heyətinin ilk iclası keçirilib. Bu müəssisə ərəb dünyasında futbol üzrə ilk dünya çempionatının yüksək səviyyədə təşkilinə cavabdeh olacaq, onun əsas fəaliyyəti isə turnirin keçirilməsinə yönəldiləcək. Təşkilat komitəsi, öz növbəsində, infrastrukturun inkişafının idarə edilməsi ilə məşğul olacaq və müxtəlif proqramlar üzrə fəaliyyət göstərəcək.

Dünya çempionatının təşkilat komitəsinin rəhbəri və yeni müəssisənin idarə heyətinin sədri vəzifələrini icra edən Hassan Əl-Tavvadi bununla əlaqədar FİFA mətbuat xidmətinə deyib: “FİFA ilə birgə müəssisənin yaradılması Qətərdə keçiriləcək dünya çempionatı layihəsi çərçivəsində strateji əhəmiyyətli məqamda baş verir. Belə ki, biz müxtəlif infrastruktur layihələrimizi başa çatdırırıq. Onların arasında stadionların və məşq meydançalarının istifadəyə verilməsi də var. Qarşımızda duran növbəti vəzifə Qətərdə dünya çempionatının ən yüksək şəraitdə keçirilməsinə kömək edəcək bu cür turnirlərin təşkil olunması təcrübəsinin öyrənilməsidir”.

2022-ci ilin dünya çempionatı noyabrın 21-dən dekabrın 18-dək Qətərin yeddi şəhərində - Doha, Lusail, Əl-Bakr, Əl-Xor, Əl-Rayan, Ümm-Salal və Mədinət-əş-Şamalda keçiriləcək.

## Hokkey azarkeşləri futbol məşqçisinə güldülər

“Mançester Yunayted”in sabiq baş məşqçisi Joze Mourinyo Rusiya səfəri zamanı kuryoz hadisə ilə üzləşib.

Qitə Hokkey Liqasının “Avanqard” - OİK matçının xüsusi qonağı olan portuqaliyalı mütəxəssis görüşdən əvvəl şaybanın simvolik atışını yerinə yetirərkən müvazinətini saxlaya bilməyib.

Buzun üstünə yıxılan Mourinyo oyunçuların köməyi ilə ayağa qalxıb. Kuryoz hadisə tribunadakı azarkeşlərin gülüşünə səbəb olub.

## “Avropa çempionatının İtaliyada keçirilməsi xəyal deyil”

AÇ-2028 İtaliyada keçirilə bilər. Bu barədə İtaliya Futbol Federasiyasının prezidenti Qabriele Qravina yerli mətbuata açıqlama verib. O bildirib ki, Avropa çempionatının İtaliyada keçirilməsi xəyal deyil: “Bu, bizim proqramımızda yer alan yaxşı hazırlanmış ideyadır. Ümid edirəm ki, UEFA bizim təklifimizi dəyərləndirəcək. Əlimizdən gələn hər şeyi edəcəyik ki, UEFA və FİFA bu ortaq layihənin reallaşmasında rol oynasınlar”.

Xatırladaq ki, AÇ-2020 Bakı da daxil olmaqla Avropanın bir neçə şəhərində, AÇ-2024 isə Almaniyada keçiriləcək.

## “Mançester Yunayted”in baş məşqçisi dəyişməyəcək

İngiltərənin “Mançester Yunayted” klubunun baş məşqçi vəzifəsini müvəqqəti icra edən Ole Qunnar Sulşer yeni mövsümdə də komandanı çalışdıracaq.

İngiltərə Premyer Liqasının 26-ci turunda “Fulhem” klubunu məğlub edəndən sonra baş məşqçi və agenti komandanın idarə heyətinin üzvləri ilə görüşüblər. Klubun həmsədri Avram Qleyzer “The Sun” nəşrinə verdiyi açıqlamada Sulşerin yeni mövsümdə klub ilə uzunmüddətli müqavilə imzalayacağını qeyd edib. Sözləşmə ictimaiyyətə cari mövsümün sonunda bildiriləcək.

Qeyd edək ki, Ole Qunnar Sulşer 2018-ci il dekabrın 19-da Jose Mourinyo vəzifəsindən azad edildikdən sonra “Mançester Yunayted” klubuna müvəqqəti baş məşqçi təyin olunub. Norveçli mütəxəssisin 11 oyunluq məğlubiyyətsiz seriyası davam edir. O, klub ilə 10 qələbə və 1 heç-heçə edib.

# Dünya idmanı



## *Lebron Ceyms 16 illik karyerasında ilk dəfə*



NBA-nın titullu idmançısı, "Leykers" klubunun oyunçusu karyerasında ilk dəfə böyük məğlubiyyətə uğrayıb.

Onun təmsil olunduğu klub səfər matçında "İndiana" komandasına 94:136 hesabı ilə uduzub. 42 xallıq fərqlə məğlubiyyət basketbol əfsanəsinin 16 illik idman karyerasında ilk dəfədir baş verir.

Məğlubiyyətdən kefi pozulan Lebron Ceyms matçın 4-cü hissəsində oyunçular skamyasında hamıdan aralı oturaraq fikrə dalıb.

Bununla "Leykers" geriləyərək qərb konferensiyasında 10-cu pillədə qərarlaşıb.

## Ramzan Kadırov avtomobil hədiyyə etdi



Çeçenistan prezidenti Ramzan Kadırov Həbib Nurməhəmmədovun atasına bahalı maşın bağışlayıb.

Bu barədə UFC çempionu öz "İnstagram" səhifəsində məlumat paylaşıb.

Çeçenistan lideri Ramzan Kadırov Rusiyanın qarışıq döyüş növləri ustası (MMA) Həbib Nurməhəmədovun atasına qara "Mercedes" bağışlayıb. İdmançı Çeçenistan başçısına göstərdiyi diqqətə görə minnətdarlıq edib. Nurməhəmmədov Kadırovun "qardaş Dağıstan xalqına" dəstək olan layiqli addımlar atdığını xatırladıb.

Xatırladaq ki, bundan əvvəl Kadırov dayanmadan dörd min dəfə "jim" edən beş yaşlı Rəhim Kuriyevə ağ "Mercedes" bağışlamışdı.

## *Yeni dünya rekordu müəyyənləşib*




Beynəlxalq Su İdmanı Növləri Federasiyası (FINA) yeni dünya rekordunu qeydə alıb.

Rusiyalı üzgüçü Kirill Priqoda yeni dünya rekordunun sahibi olub.

Kirill Priqoda ötən il Çinin Hanqcou şəhərində keçirilən dünya çempionatında 200 metr məsafəyə brass üsulu ilə üzmə yarışında qızıl medal qazanıb. Rusiyalı üzgüçü bu məsafəni 2 dəqiqə 16 saniyəyə qət edib. Bundan əvvəlki rekord isə almaniyalı Marko Koxa məxsus olub - 2 dəqiqə 44 saniyə.

İyirmi üç yaşlı Priqoda dördqat dünya çempionudur.

## *Osaka Dohada yarışmayacaq*

Qadınlar arasında dünyanın 1 nömrəli tennisçisi Naomi Osaka Dohada keçirilən beynəlxalq turnirdə iştirak etmir.

Yaponiyalı tennisçinin bu yarışda iştirak etməməsinə səbəb US Open və Australian Open turnirləri zamanı çiynindən aldığı zədələrdir.

Beləliklə, Doha turnirinin bir nömrəli tennisçisi reytinqdə 3-cü olan Simona Halep olacaq.

## İrlandiyalı idmançı şirkətin elçisi seçildi

"Parimatch" bukmeker şirkəti iki çəki dərəcəsində sabiq UFC dünya çempionu Konor Makqreqorla müqavilə bağlayıb. İrlandiyalı bundan sonra şirkətin elçisi olacaq.

"Şirkətimiz çox məmnundur ki, Konor bizim şirkəti təmsil edəcək. Onun sayəsində şirkətimiz bukmeker bazarında daha da möhkəmlənəcək", - deyə şirkətin rəhbəri İqor Vişnyakov deyib.

Tanınmış boksçu şirkətin elçisi olduğu üçün qürur duyduğunu bildirib. Həmişə qələbə əzmində olduğunu deyən Makqreqor "Parimatch" bukmeker şirkəti ilə daha böyük uğurlar qazanacağına əmin olduğunu söyləyib.

## *Döyüşçü beynini bağışlayacaq*

UFC-nin keçmiş döyüşçüsü 42 yaşlı Banderley Silva qarşılaşmalar zamanı başından aldığı zədələrdən danışıb.

"Beyin silkələnməsi ilə bağlı mühazirələrdə oldum. Anladım ki, məndə onun əlamətləri yetərincədir: əhval-ruhiyyənin kəskin dəyişməsi, əsəbilik, unutqanlıq və yuxu problemi. Ölümdən sonra beynimi tədqiqat üçün vermək istəyirəm. Onsuz da o, mənə lazım olmayacaq. Gənc boksçulara tövsiyə edirəm ki, özlərini qorusunlar və məşqçilər hər gün ağır məşqlərlə onları yükləməsinlər", - deyə idmançı deyib.

Məlumat üçün bildirək ki, Bvanderley Silva UFC-nin 35 döyüşündə qalib gəlib, 14-də uduzub.

olimpnews.az - sizin saytınız




## İdmançı dağ aslanını boğaraq öldürüb



ABŞ-ın Kolorado əyalətində adı açıqlanmayan şəxs ona hücum edən dağ aslanını boğaraq öldürüb. Hadisə ABŞ-da sosial şəbəkədə ən çox müzakirə olunan mövzuya çevrilib.

Bildirilir ki, dağ çığırı ilə qaçan idmançıya dağ aslanı hücum edib, idmançı özünü müdafiə etmək üçün aslanı öldürməli olub. Kolorado Park və Vəhşi Təbiət Mərkəzinin rəsmiləri məlumatı təsdiqləyiblər. Qol və ayağından yaralanan şəxs xəstəxanaya yerləşdirilib. Qeyd edək ki, Koloradoda 1990-cı ildən bəri dağ aslanı 3 nəfəri öldürüb, 16 nəfəri isə yaralayıb.

## *İti Emiliano Salanın yolunu gözləyir*



Uelsin "Kardiff Siti" klubuna transfer olunduqdan sonra Britaniyaya uçan təyyarəsi yoxa çıxan Emiliano Salanın iti onun yolunu gözləyir.

Bu barədə onun bacısı "instagram"da yazıb. O, bildirib ki, it Sala üçün çox darıxıb və oturub sahibinin yolunu gözləyir.

Futbolçunun cəsədi isə xeyli və çətin axtarışlardan sonra tapılıb. Böyük Britaniyanın Dorset qraflığının polisi qəzaya uğramış təyyarənin qalıqlarından argentinalı futbolçu Emiliano Salanın cəsədinin tapıldığını və Portlend limanına gətirildiyini barədə məlumatı təsdiq edib.

Qeyd edək ki, "Kardiff Siti"nin yeni transferi Salanın da yer aldığı təyyarə yanvarın 21-də yoxa çıxmışdı.

## *Boksçu qətlə yetirildi*



Rusiyalı boksçu, bir sıra beynəlxalq yarışların qalibi olmuş Aleksandr Kostromin Belqorod şəhərində öldürülüb.

Kostromin odlu silahdan açılan atəşlə qətlə yetirilib. Onun cəsədi yaşadığı evin yanında aşkarlanıb.

Daha əvvəl Suriyada İŞİD terror təşkilatının tərkibində döyüşən rusiyalı boksçu Vyaçeslav Lapşin öldürülüb.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19